Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

5-7 OKTYABR 2019-cu il

№ 178 (4076)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ATOM ELEKTRİK STANSİYASI AZƏRBAYCANLA RUSİYANIN YENİ BİRGƏ MÜHÜM LAYİHƏSİNƏ ÇEVRİLƏ BİLƏR

səh. 8

Prezident Əliyevin "Valday" klubunda Qarabağ bəyanatından çıxan böyük nəticə... — səh. 4

"Valday" klubu Ermənistanın əsir və girovları dəyişdirməkdən yan keçməsinə həlledici zərbə vurdu — səh. 4

Azərbaycanın və Ermənistanın dövlət büdcələri arasında fərq - 15 milyard dollar hara, 4 milyard hara... — səh. 6

"Qondarma Artsax" bayrağı gəzdirən dron futbol meydançasına bomba da gətirə bilərdi... — səh. 5

Saxta əlillərin sayı 2500-dən çox oldu, sərt tədbir görüldü... — səh. 10

Azərbaycan MDB-də Rusiyadan sonra investisiya yatırmalı ikinci ən yaxşı ölkə kimi - qiyməti ABŞ nəşri verdi — səh. 12

Azərbaycan xalqının 33 milyondan çox müraciəti ASAN şəkildə həll olunub — səh. 13

Qaraçuxur sakinlərinin dəhşətli nəqliyyat problemi - qəsəbədən metroya cəmi bir marşrut... — səh. 15




## Azərbaycan Prezidenti BMT TŞ-də köklü islahatların zəruriliyini yenidən aktuallaşdırdı...

səh. 3



**«Valday» klubundakı proseslər təcavüzkar İrəvanı tam oyundankənar vəziyyətə saldı** səh. 9

**İstehlak kreditləri ilə bağlı daha bir problemli məqam üzə çıxdı** səh. 7



**Lavrovun «Qarabağ müharibəsinə mümkün qədər imkan verməyəcəyik» bəyanatının iki başı...** səh. 5

səh. 2

**"Liderciklər 26 ildir ki..."**



səh. 6

Ermənistanda Antikorrupsiya komitəsi - ölkə korrupsiya girdabında olduğunu rəsmən etiraf edir...



səh. 12

Azərbaycan brendli məhsullar bu il 25 beynəlxalq sərgidə təmsil olunub



səh. 13

İstehlakçının tələb etdiyi hər şeyə görə kredit verilməməlidir...



səh. 15

Gələn ildən Azərbaycanda "halal internet"... "halal" nədir...



# "Liderciklər 26 ildir ki..."

**Dövlətçiliyin ən etibarlı qarantı və hakimiyyətin yeganə mənbəyi xalqdır! Bu həqiqəti düz 25 il əvvəl ümummilli lider Heydər Əliyev xalqın böyük dəstəyi ilə Surət Hüseynov və Cavadov qardaşlarının dövlət çevrilişi cəhdinin qarşısını alaraq bütün dünyaya nümayiş etdirdi.**



Yaşlı və orta nəsil həmin vaxt Azərbaycanda cərəyan edən dramatik hadisələri yaxşı xatırlasalar da, gənc nəsil bu barədə yalnız mətbuatdan məlumat ala bilir. Ümummilli lider tərəfindən Azərbaycanın müstəqilliyi və gələcək inkişafının əsas resurslarından və əlavə qarantlardan biri kimi düşünülmüş "Əsrin müqaviləsi"nin imzalandığı 1994-cü ilin 20 sentyabrdan dərhal sonra başlanmış və oktyabrın əvvəllərində kulminasiya nöqtəsinə çatmış həmin xain çevriliş cəhdi hər şeydən əvvəl dövlətçiliyimizə, müstəqilliyimizə və bu müstəqilliyin qarantı olan lider Heydər Əliyev hakimiyyətinə qarşı yönəlmişdi.

Diqqət edin! 1994-cü il sentyabrın 20-də neft müqavilələri imzalanır. Sentyabrın 21-dən 22-nə keçən gecə dövləti cinayətlərdə təqsirləndirilən 4 nəfər Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçırılır. Sentyabrın 29-da axşam vaxtı evinin astanasında Milli Məclisin sədr müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qətlə yetirilir. Sentyabrın 30-da baş prokurorun xidməti avtomobili partladılır, oktyabrın 2-də Mahir Cavadovun rəhbərliyi ilə əsasən "OMON"-çulardan ibarət silahlı dəstə Respublika Prokurorluğunun binasını gülləbaran edərək ələ keçirir. Nyu-Yorkda BMT Baş Məclisinin illik sessiyasında iştirak edən Heydər Əliyev təcili ölkəyə qayıdaraq təhlükəli proseslərin qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər görməyə başlayır. Oktyabrın 4-də vəziyyət daha da kəskinləşir. Cavadov qardaşları ilə əlbir olan o zamankı üsyankar baş nazir Surət Hüseynovun qanunsuz silahlı dəstələri Gəncə şəhərində hakimiyyət orqanlarının inzibati binalarını, dəmir yolu vağzalını və aeroportu zorla ələ keçirir, şəhərə giriş-çıxışı nəzarətə götürür. Belə bir şəraitdə Heydər Əliyev çox müdrik və cəsarətli addım atdı. O, dövlət çevrilişinə cəhd edənlərə qarşı legitim güc işlətmək səlahiyyətində və imkanında olsa da, başqa yol seçdi və bu seçimi müasir dünya siyasətinin yeni bir nümunəsinə çevirdi. Yolunu azmış silahlı dəstələrə, terror və hədə-qorxu ilə hakimiyyətə can atan antimilli ünsürlərə, onlara xaricdən istiqamət və dəstək verən xainlərə qarşı Azərbaycan xalqının dəmir iradəsini ortaya qoydu. Heydər Əliyev oktyabrın 4-də televiziya ilə birbaşa xalqa müraciət edərək, vətəndaşları Azərbaycan dövlətçiliyini və milli suverenliyini qorumaq naminə Prezident sarayının qarşısına çağırdı. Gecə saatları olmasına baxmayaraq, qısa müddətdə on minlərlə insan Öz Liderinin ətrafına toplaşaraq Vətənə, dövlətə sədaqətlərini, milli dövlətçilik əzmlərini bütün dünyaya nümayiş etdirdi. Təbii ki, xalqın əzmi, iradəsi, milli birliyi və öz liderinə etimadı qarşısında heç bir qüvvə indiyə qədər dayana bilməyib və dayana da bilməz!!!

Xüsusi aktuallığını nəzərə alaraq, dəyərli oxucuların diqqətini bir mühüm məsələyə yönəltmək istəyirəm. 1993-cü ilin iyun ayında həmin üsyançı polkovnikin- Surət Hüseynovun silahlılarının qorxusundan hakimiyyəti Heydər Əliyevin üzərinə ataraq qaçıb küncdə-bucaqda gizlənən AXC-Müsavat liderləri o çətin günlərdə yenə də öz antidövlət və antixalq xislləri nümayiş etdirdilər. Onlar dövlətçiliyin və qanuni hakimiyyətin müdafiəsinə qalxmış və meydanlara çıxaraq milli iradə nümayiş etdirən xalqın cəbhəsində deyil, elə bugünkü kimi, o zaman da üsyançıların yan-yörəsində yer aldılar. Düşünürəm, elə bunun nəticəsidir ki, bu günün özündə də müxalif düşərgəni zəbt etmiş həmin "liderciklər" 26 ildir ki, hakimiyyət eşqi ilə yanıb-qovrulur, xəyanət etdiyi xalqın etimadını qazana bilmir və yenə də küncdə-bucaqda "pusqu quraraq" mövcud hakimiyyətin nə zaman büdrəyəcəyini gözləyir. Düşünürəm ki, mütləq əyri və qeyri-qanuni yollarla hakimiyyətə can atan siyasətbazlar 4 oktyabr 1994-cü il tarixindəki davranışlarından doğru nəticə çıxararaq ibrət dərsi götürsə və xarici anti-Azərbaycan mərkəzlərinin sifarişləri ilə deyil, öz xalqının iradəsinə uyğun hərəkət etsələr, gələcəkdə bəlkə nəsə edə bilərlər...

***Əli Həsənov***
***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor***

## MŞ sədri Əflatun Amaşov Tiflisdə Avropa Mətbuat Şuraları Alyansının illik toplantısında iştirak edib

*Şura təmsilçiləri Şərq Tərəfdaşlığı Ölkələrinin Medianın Özünütənzimləmə Şəbəkəsinin tədbirinə də qatılıblar*

**Gürcüstanın paytaxtı Tiflisdə Avropa Mətbuat Şuraları Alyansının illik toplantısı öz işinə başlayıb. Ölkəmizi bu mötəbər toplantıda Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov və Şuranın İdarə Heyətinin üzvü, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli təmsil edir.**



MŞ sədri Ə.Amaşov rəhbərlik etdiyi qurumun illik fəaliyyətinə dair məruzə səsləndirib. O, çıxışında Şuranın şikayətləri araşdırması təcrübəsindən söz açıb, iştirakçıları bununla bağlı statistik göstəricilərlə məlumatlandırıb. Ə.Amaşov özünütənzimləmə prosesində meydana çıxan problemli cəhətlər barədə də danışıb. Mövcud xüsusda internet media vasitələrinin hüquqi statusunun müəyyənləşdirilməmiş qalmasının gətirdiyi fəsadlara diqqət çəkib, oxşar çətinliklərin alyansa üzv digər dövlətlər üçün də aktuallığını qabardaraq bununla əlaqədar mətbuat şuraları üçün vahid modelinin tətbiqinin zəruriliyini əsaslandırıb.

MŞ İdarə Heyətinin üzvü Y.Məmmədlinin çıxışı sosial media kontekstində trollar mövzusunda olub. Y.Məmmədli mövcud sahədə Azərbaycandakı durumla əlaqədar məlumat verib. O, həmçinin sosial şəbəkələrdə saxta profil məsələnin söz və ifadə azadlığını təhdid edən, bu azadlıqlardan sui-istifadə predmeti daşıyan mahiyyətinə diqqət yetirib.

Ə.Amaşov və Y.Məmmədli Tiflisdə həmçinin Şərq Tərəfdaşlığı Ölkələrinin Medianın Özünütənzimləmə Şəbəkəsinin illik toplantısında da iştirak ediblər. Azərbaycanla yanaşı, Rusiya, Ukrayna, Belarus, Gürcüstan, Moldova və Ermənistanın medianın özünütənzimləmə qurumlarının yer aldıqları şəbəkənin tədbirində Avropa Biriliyi, Avropa Şurası və digər nüfuzlu beynəlxalq təşkilatların media siyasəti məsələlərinə toxunulub. Toplantıda həmçinin onlayn medianın cəmiyyət həyatındakı rolu, ictimai fikrin formalaşmasında sosial şəbəkələrin daşıdıqları funksiya, mövcud sahədəki xoşagəlməz tendensiyalar ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Azərbaycan XİN futbola siyasət qatmaq istəyənlərin cəzalandırılmasını Lüksemburq hökuməti qarşısında tələb kimi qoydu

**AFFA "Düdelanj" - "Qarabağ" oyununda baş verən təxribatla bağlı bəyanat yayıb. Baki-xeber.com-un məlumatına görə, bəyanatda deyilir:**

"Oyunun 30-cu dəqiqəsində, "Qarabağ" komandasının vurduğu ikinci qoldan sonra meydanın üzərində uçan aparat - dron peyda olub. Üzərində separatçı, qondarma "Dağlıq Qarabağ Respublikası"nın "bayrağı" asılmış idarə olunan uçuş aparatı meydanın mərkəzinə doğru yönəldilib. Bunun nəticəsində baş hakim oyunun dayandırılması barədə qərar qəbul edib. Təxminən 20 dəqiqədən bir qədər artıq yaranmış məcburi fasilədən sonra oyun dayandırıldığı dəqiqədən davam etdirilib. Təxribata görə yaranmış fasilə müddətində Lüksemburqun idman naziri insidentə görə Lüksemburq hökuməti adından "Qarabağ" komandasından və azarkeşlərdən üzr istəyib. "Qarabağ" klubunun nümayəndələri yaranmış vəziyyətlə əlaqədar narahatlıq və narazılıqlarını yerindəcə "Düdelanj" klubuna və UEFA təmsilçilərinə bildiriblər. AFFA rəhbərliyi təcili şəkildə UEFA ilə əlaqə saxlayaraq hadisə ilə bağlı narahatlığını ifadə edib. Bundan əlavə, AFFA artıq UEFA-ya şikayət məktubu ünvanlayaraq müvafiq qaydada ölçü götürülməsini tələb edib.



Futbol - qarşılıqlı ehtiram, idman ruhu və bərabərlikdir. Təəssüf ki, bəzi qüvvələr futbolu siyasi təxribatlar meydanı kimi görürlər. "Josy Barthel" stadionunda rastlaşdığımız hadisə, eyni zamanda, futbolçuların təhlükəsizliyini şübhə altına salır və ümid edirik ki, gələcəkdə bu cür halların baş verməməsi üçün müvafiq addımlar atılacaq. İnanırıq ki, UEFA araşdırma apararaq oyunun gedişində baş vermiş xoşagəlməz hadisə ilə bağlı müvafiq qərar qəbul edəcək.

AFFA "Qarabağ" komandasının futbolçularına təxribata uymadıqlarına, emosiyalarına nəzarət etdiklərinə və peşəkar davranışlarına görə təşəkkür edir. Komanda UEFA-nın dəyərlərinə əsil ehtiramını nümayiş etdirdi: hakimin qərarına hörmət, rəqibə hörmət, azarkeşlərə hörmət!

Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir! Erməni silahlı birləşmələrinin işğalı nəticəsində Azərbaycan tarixi torpaqlarının bir hissəsini itirib, 1 milyondan artıq həmvətənimiz uzun illərdir ki, qaçqın və məcburi köçkün şəraitində yaşamaq məcburiyyəti qarşısında qalıb. "Qarabağ" futbol dünyasında azsaylı klublardan biridir ki, siyasi münaqişə üzündən, erməni silahlı birləşmələrinin işğalı ucbatından ev oyunlarını doğma stadionunda, təmsil etdiyi Ağdam rayonunda keçirə bilmir.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası bütün futbol oyunlarının FIFA və UEFA-nın müəyyənləşdirdiyi dəyərlərə hörmət ruhunda keçirilməsini dəstəkləyir, futbol oyunları zamanı siyasi təxribat cəhdlərini qəti şəkildə pisləyir!".

Azərbaycan Xarici İşlər Nazirliyi oktyabrın 3-də Lüksemburqdakı "Jozi Bartel" stadionunda UEFA Avropa Liqasının 2019-2020-ci il mövsümünün qrup mərhələsinin ikinci turu çərçivəsində keçirilən "Düdelanj" - "Qarabağ" oyunu zamanı baş vermiş təxribatla bağlı vəziyyəti araşdırır. Baki-xeber.com xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat katibi Leyla Abdullayeva "Twitter" səhifəsində yazıb. L.Abdullayevanın sözlərinə görə, Azərbaycanın akkreditə olunmuş səfirinə Lüksemburq XİN-lə bu məsələ ilə bağlı danışmaq və təxribatın günahkarlarının lazımi məsuliyyətə cəlb olunmalarını tələb etmək tapşırılıb.

UEFA Avropa Liqasının qrup mərhələsində Lüksemburqda oynanılan "Düdelanj" - "Qarabağ" oyunu erməni təxribatı ilə əlaqədar matçın 30-cu dəqiqəsində müvəqqəti dayandırılıb.

Belə ki, "Qarabağ" 2-ci qolunu vurduqdan sonra "Jozi Bartel" stadionu üzərində dronla qondarma "Dağlıq Qarabağ Respublikası"nın "bayrağ"ı sallanıb. Azərbaycan komandası və azarkeşlər buna kəskin etiraz ediblər. Matçda fasilə yaranıb. Lüksemburqun idman naziri üzrxahlığını çatdırdıqdan sonra oyun davam etdirilib.

Qeyd edək ki, oyun "Qarabağ"ın 4:1 hesablı qələbəsi ilə yekunlaşıb.

# Azərbaycan Prezidenti BMT TŞ-də köklü islahatların zəruriliyini yenidən aktuallaşdırdı...

**Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasının plenar sessiyasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həllində olan maneələrdən danışarkən BMT TŞ-nin qəbul etdiyi və hələ də icra olunmayan 4 qətnaməsinə diqqəti yönəldib:**

"...Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətində münaqişə başlayan vaxta qədər azərbaycanlı və erməni əhalinin nisbəti 25-in 75-ə idi. Qarabağ münaqişəsi nəticəsində Dağlıq Qarabağın və ətraf 7 rayonun bütün azərbaycanlı əhalisi qovulub.

Başqa sözlərlə desək, etnik təmizləmə həyata keçirilib və bu gün də işğal olunmuş ərazilərdə azərbaycanlı əhali yoxdur. Həmin ərazilərin böyük hissəsi yandırılmış torpaqlar, dağıdılmış evlər, məktəblər və ictimai obyektlərdən ibarətdir.

Münaqişə nəticəsində Azərbaycan humanitar fəlakətlə üzüzə gəldi. Dağlıq Qarabağ və işğal olunmuş ətraf rayonlardan 700 mindən çox əhalisi və Ermənistan ərazisində yaşayan 250 min azərbaycanlı öz tarixi torpaqlarından qovuldu.

BMT-nin Təhlükəsizlik Şurası 4 qətnamə, o cümlədən, Ermənistan Silahlı Qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamə qəbul edib ki, onlar da 25 ildən artıqdır yerinə yetirilmirlər.

Burada vacib bir məsələyə - verilən qərarların icrasına gəlirik. BMT Təhlükəsizlik Şurası ən yüksək beynəlxalq orqandır.

25 ildən çoxdur ki, Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, bu qurumun səmərəliliyi ilə bağlı çoxlu sual doğur. Qətnamələrin icrasının seçmə mahiyyəti Azərbaycanı narahat edir. Bəzən onlar gün ərzində həyata keçirilir, bəzən müəyyən hərbi əməliyyatlar üçün ümumiyyətlə tələb olunmur. Bizim vəziyyətimizdə qətnamələr kağız üzərində qalır.




Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli bütün dünya tərəfindən qəbul edilmiş BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktına uyğun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olmalıdır".

Göründüyü kimi, İlham Əliyev bir daha BMT TŞ-nin Dağlıq Qarabağla bağlı qəbul etdiyi 4 qətnamənin icra mexanizminin olmamasını yenidən vacib məsələ kimi gündəmə gətirib. BMT vacib olan bu neqativliyi aradan qaldırmaq üçün nələr etməlidir?

Milli İstiqlal Partiyasının beynəlxalq məsələlər üzrə katibi Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, hər bir dialoq sonda beynəlxalq hüquqa, BMT Nizamnaməsinə əsaslanmalıdır: "Nizamnamənin qarantı BMT Təhlükəsizlik Şurasıdır. Təhlükəsizlik Şurasının ünvanına səslənən iradlarla razılaşmamaq mümkün deyil. BMT Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının işğaldan azad olunması üçün 4 qətnamə qəbul edib. BMT-də bəzi dövlətlər var ki, Ermənistanı dəstəkləyir, ona görə qətnamələr icra olunmur. Yoxsa, elə qətnamələr var ki, saatlar ərzində icra olunur. BMT, ilk növbədə, beynəlxalq hüququn aliliyini qorumalıdır. Bu cür halların yaşanması onun imicinə də böyük zərbə vurur".

Ekspertin sözlərinə görə, BMT üçün ciddi problem müxtəlif regionlarda müşahidə edilən münaqişələrin ədalətli həllinə nail olma çətinliyidir: "Buna misal olaraq, Cənubi Qafqazda, Şərqi Avropada, Afrikanın bir sıra bölgələrində, Uzaq Şərqdə mövcud olan münaqişələri göstərə bilərik.

Onlardan biri - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi uzun illərdir həll edilməmiş qalır. Baxmayaraq ki, BMT TŞ bununla bağlı 4 qətnamə qəbul edib, onlar hələ də reallaşmayıb. Həmin sənədlərdə birmənalı göstərilir ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından çəkilməlidir. Lakin bu baş vermir. Niyə?

Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrində kənar dövlətin hərbi qüvvələri yerləşdirilib. Bu bölgələr, faktiki olaraq, işğal altındadır. Beynəlxalq təşkilatların həmin ərazilərdə Gürcüstanın suverenliyinin təmin edilməsi barədə dəfələrlə qərar qəbul etməsinə baxmayaraq, heç bir dəyişiklik yoxdur.

Ukraynanın Krım bölgəsi zəbt edilib, ölkənin şərqində silahlı qarşıdurma davam edir. Məsələnin həlli isə hələ ki, görünmür. Suriyada vəziyyət olduqca mürəkkəb olaraq qalır. BMT isə acizliklə nə isə etməyə çalışır, real nəticə yoxdur. Əvəzində böyük dövlətlər istədikləri zaman oraya ordu göndərə bilirlər. Əgər BMT bu prosesin qarşısını ala bilmirsə, o necə effektiv təşkilat sayıla bilər?

Başqa faktları da göstərmək olar. Ancaq BMT-də islahatları zəruri edən bu obyektiv faktorlarla yanaşı, mütəxəssislər başqa məqamlara da diqqət çəkirlər. Burada əsas olaraq böyük dövlətlərin dünya liderliyi iddiası irəli sürülür.

**Təcrübə göstərir ki, həqiqətən də burada ziddiyyətli məqamlar kifayət qədərdir. Məsələn, İraq və Liviya ilə bağlı BMT-nin qəbul etdiyi qətnamələr dərhal yerinə yetirildi, çünki onlara ABŞ başçılıq edirdi. Dağlıq Qarabağla bağlı qəbul edilən qətnamələr isə neçə illərdir həyata keçirilməmiş qalıb. Hətta təcavüzkar Ermənistana qarşı heç bir səmərəli addım atılmayıb. Deməli, ortada ikili standartlar var və təəssüf ki, bu fakt hətta BMT-nin rəsmi otaqlarında qəbul edilən qərarlara və onların reallaşması mexanizmlərinə təsir göstərməkdədir".**

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident Əliyevin "Valday" klubunda Qarabağ bəyanatından çıxan böyük nəticə...

**Prezident İlham Əliyev Soçidə "Valday" klubunun toplantısında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ermənilər və dünyaya ciddi mesajlar vermiş oldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan dövlət başçısı Ermənistanın təcavüzkar siyasətinin nəticələrini, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin 25 ildən çoxdur yerinə yetirilməməsi və digər mühüm məqamları diqqətə çatdırıb.**



Dövlət başçısı Ermənistan Baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" bəyanatının yalan olduğunu vurğulayaraq deyib: "Qarabağ tarixi Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

4 aylıq fasilədən sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında keçirilən görüş və bu görüş ərəfəsində verilən mesajlar, həmin gün baş verən hadisələr artıq təhlil üçün ilkin nəticələri ortaya qoyub. Birincisi, Əliyev "Qarabağ Azərbaycandır və nida işarəsi!" bəyanatıyla göstərdi ki, o, vədinə sadiqdir, Qarabağ məsələsində tutduğu mövqedən geri çəkilməyib və Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alacaq istənilən həll modelini qəbul etməyəcək. Bu görüş öncəsi Sergey Lavrovun "Dağlıq Qarabağın Ermənistanın olması bəyanatı münaqişənin həllinə kömək etmir" fikri də təsdiqləyir ki, son bir neçə aydakı təxribatçı açıqlama və hərəkətlərlə münaqişə zonasında məqsədli gərginlik yaratmaq və sülh danışıqlarını pozmaq mövqeyindən yalnız Paşinyan hökuməti çıxış edir. İlham Əliyevin "Valday"dakı çıxışndan daha hansı böyük nəticələri çıxara bilərik?

Qeyd edək ki, "Valday" Beynəlxalq Diskussiya Klubu 2004-cü ildə yaradılıb. Klubun ilk konfransı Rusiyanın Velikiy Novqorod şəhərində, Valday gölünün sahilində keçirilib. Elə klub adını da buradan götürüb. Ötən illər ərzində dünyanın aparıcı ekspertlərinin görüş yerinə çevrilmiş klub öz tədqiqatlarında qlobal siyasət və iqtisadi proseslərin araşdırılmasına xüsusi yer verir. İndiyədək klubun işinə 74 ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndə, o cümlədən, Harvard, Kolumbiya, Corctaun, Stenford, Karlton, Sarbonna, London, Qahirə, Tehran, Tokio, Təl-Əviv və digər universitetlərin tanınmış professorları qatılıblar. Finlandiya, Çexiya, Avstriya, Fransa, İtaliya, İran, CAR və digər ölkələrin prezidentləri və baş nazirləri "Valday" klubunun qonağı olublar.

Rusiya Prezidenti Vladimir Putin klub yarandığı vaxtdan hər il diskussiyaların iştirakçıları ilə görüşür və ətraflı fikir mübadiləsi aparır. Onu da bildirək ki, digər ölkələrin rəhbərləri bu tədbirlərə məhdud sayda dəvət olunurlar. Hazırda keçirilən tədbirə də bir neçə ölkənin rəhbəri qatılıb.

Başlıca məqsədlərindən biri dünya sisteminin böhrandan çıxarılmasına dair qərarlar qəbul etmək üçün intellektual elitanın bir araya gətirilməsi olan klub beynəlxalq münasibətlər, qlobal siyasət, iqtisadiyyat, təhlükəsizlik, energetika, sosiologiya və digər sahələrdə aparıcı ekspertlərlə əməkdaşlıq edir. Klub Asiya, Yaxın Şərq, Avroatlantika dialoqları kimi regional konfranslar da təşkil edir.

"Valday" klubu 2018-ci ildə bütün dünyanın diqqət mərkəzində olan Rusiya-Çin konfransının və Rusiya-İran dialoqunun təşkilatçısı olub. Ötən ilin iyun ayında klubun diskussiya meydanında məhz bu məqsədlə Rusiyaya səfər edən BMT-nin Baş katibi Antonio Quterreşlə görüş keçirilib. Bu baxımdan da İlham Əliyevin tədbirə dəvət edilməsi və həmin tribunadan vacib mesajlar verməsinin əhəmiyyəti böyükdür. Bütün dünya birliyi bir daha əmin oldu ki, Azərbaycan prinsipial mövqeyində qalır və münaqişənin həllində ərazi bütövlüyü ilə bağlı zərrə qədər də güzəştə gedən deyil. Ölkə başçısı, eyni zamanda, dünyanın diqqətinə çatdırdı ki, belə vəziyyət uzun zaman davam edə bilməz. Birgə səylərlə problemin həllinə töhfə verilməlidir. Əks halda, biz öz gücümüzə torpaqlarımızı azad etməyə qadirik.

*Məhəmmədəli QƏRİBLİ*

# "Valday" klubu Ermənistanın əsir və girovları dəyişdirməkdən yan keçməsinə həlledici zərbə vurdu

## Əhməd Şahidov: "Proses yekunlaşmaq üzrədir"

**Rusiya xarici işlər naziri Sergey Lavrov Ermənistanın həbsdə saxladığı azərbaycanlı girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevin taleyi ilə bağlı açıqlama verib. "Valday" klubunun XVI sammitində çıxış edən Lavrov yaxın zamanlarda əsir və girovların dəyişdiriləcəyini deyib.**

*"Yaxın zamanda Dilqəm və Şahbaz öz vətənlərinə təhvil veriləcək"*

Bundan bir neçə gün öncə isə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) iclasında Azərbaycan nümayəndə heyəti azərbaycanlı girovların məsələsini qaldırıb.

Avropa Şurasının Baş katibi Mariya Pesçinoviç Buriç isə Dilqəm Əsgərov və Şahbaz Quliyev probleminin Baş Katibliyin gündəliyində olduğunu bildirib. Məlum olduğu kimi, Lavrov bundan əvvəl də girovların dəyişməsi ilə bağlı fikirlər səsləndirmişdi. Ancaq budəfəki kimi konkret fikrini ifadə etməmişdi. Lavrovun girovların dəyişdiriləcəyi ilə bağlı əminliyindən hansı nəticəni çıxara bilərik?

Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru, hüquq müdafiəçisi Əhməd Şahidov "Bakı-Xəbər"ə bildirdi ki, hazırda Böyük Britaniyanın paytaxtı London şəhərində keçirilən beynəlxalq insan haqları konfransında iştirak edir: "Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları üzrə Ali Komissarlığının dəstəyilə baş tutan "Hərbi münaqişələr, sülh və insan haqları" adlı beynəlxalq konfransda dünyadakı münaqişə ocaqları, müharibə zonaları, mülki şəxslərin hüquqları və sülh təşəbbüsləri barədə məruzələr dinlənib.

"Münaqişələrin humanitar fəsadları" adlı paneldə çıxışım zamanı azərbaycanlı mülki girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyev haqqında danışdım. Bildirdim ki, son 6 ildə Ermənistan heç bir beynəlxalq çağırışa məhəl qoymur və mülki şəxsləri girov saxlamaqda davam edir. Rəsmi Bakı humanist bir təkliflə çıxış etməkdədir və əsir və girovların "hamının-hamıya" prinsipi ilə dəyişdirilməsini təklif edir. Ancaq Ermənistan bundan yayınır. Buna



baxmayaraq, edilən təzyiqlər nəticəsini verməkdədir. Hətta deyərdim ki, proses yekunlaşmaq üzrədir. Lavrovun çıxışı zamanı girovlarla bağlı qəti şəkildə fikir səsləndirməsi artıq prosesin razılaşdırıldığını bildirir. Çünki bu məsələdə Rusiyanın Ermənistana təsiri var. Bu humanitar prosesdə Rusiya hər zaman fəal olub. Hətta ilk dəyişdirilmə də oldu. Mülki əsirimiz Elvin İbrahimov erməni diversant Karen Karapetyanla dəyişdirildi. Bundan sonra Azərbaycan prosesin tam yekunlaşması üçün bütün istiqamətlərdə fəaliyyəti gücləndirdi. Biz də vətəndaş cəmiyyətinin üzvləri olaraq beynəlxalq müstəvidə məsələni daim gündəmə gətirdik. Polşanın paytaxtı Varşavada keçirilən toplantıda bu məsələni bir daha 57 ölkənin səfirləri, diplomatlarının nəzərinə çatdırdıq. AŞPA-nın sessiyası zamanı da kompleks işlər apardıq. 30-a yaxın şəxslə görüşümüz oldu. Artıq görünür ki, səylərimiz öz bəhrəsini verib. Çünki Lavrov sıradan adam deyil, onun əminliklə girovların dəyişdirilməsi prosesinin baş tutacağını söyləməsi bizə inanmaqdan başqa şans tanımır. Əminəm ki, yaxın zamanda Dilqəm və Şahbaz öz vətənlərinə təhvil veriləcək".

*Məhəmmədəli QƏRİBLİ*

# Lavrovun "Qarabağ müharibəsinə mümkün qədər imkan verməyəcəyik" bəyanatının iki başı...

## Əhəd Məmmədli: "Rusiya elə bir dövlətdir ki, reallıqla razılaşır və hətta hesablaşır"

**Rusiya xarici işlər naziri Sergey Lavrovun "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında Dağlıq Qarabağ prosesinin nizamlanması haqqında sualı cavablandırarkən bəyan etdiyi fikirlər ətrafında müzakirələr davam edir. Nazir deyib: "ATƏT-in Minsk Qrupunun həmsədrləri sıx dostluq şəraitində çalışırlar.**




Onlar bu il üç dəfə xarici işlər nazirləri ilə görüşüblər, o cümlədən, bu ilin aprelində mənim iştirakımla Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ilə görüş keçirilib. İndi vəziyyət bir il əvvəlkindən sakitdir. Lakin siyasi proses yavaşıyıb və hələlik bu ləngiməni aradan qaldıra bilmirik. Tərəflər yetərincə ciddi bəyanatlar verirlər, o cümlədən, Qarabağın Ermənistan olması barədə bəyanat verilib. Şübhəsiz ki, belə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir".

Rusiya XİN-in ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə birgə işlədiyini vurğulayan S.Lavrov deyib: "Bu, az sayda hallardan biridir ki, bizim məsələyə baxışımız tamamilə eynidir, bizim baza sənədlərimiz var. Bizim dəfələrlə müzakirə olunmuş baza prinsiplərimiz var. Bu prinsiplər əsasında məsələnin həllini axtaracağıq. Amma məsələnin həlli birbaşa dialoq yolu ilə tapılmalıdır. Əlaqələr var, lakin nizamlanmaya dair dialoq hələlik bərpa olunmur. Mən burada döyüş əməliyyatlarının yenidən başlanması üçün aşkar təhlükə görmürəm. Biz bunun baş verməməsi üçün hər şeyi edəcəyik".

Göründüyü kimi, Lavrov israrla bəyan edir ki, Dağlıq Qarabağla bağlı problemin həlli istiqamətində danışıqlar səmərə vermir və eyni zamanda, müharibəyə də imkan verməyəcəklərini bildirir. Hər halda, Lavrovun fikirlərindən iki nəticə çıxarmaq olar. Birincisi budur ki, Lavrov erməniləri arxayın edir ki, qorxmayın, münaqişəni belə də, dondurulmuş vəziyyətdə saxlayın, heç bir hərbi güc tətbiqindən söhbət gedə bilməz. İkinci qənaət isə budur ki, Lavrov münaqişənin diplomatik yolla, hərbi gücə müraciət etmədən nizama salınacağının anonsunu verir. Rusiyanın baş diplomatının bu təzadlı fikrindən biz hansı dolğun nəticəni çıxara bilərik?

Politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Lavrovun, əslində, nəyə işarə etdiyi gözəl məlumdur: "Biz sağlam məntiqlə özümüzü əziyyətə salıb onun dediklərində məna axtarmamalıyıq. Çünki münaqişənin tarixi yeni deyil. Onilliklərdir biz Rusiyadan konkret mövqenin sərgiləndiyini görmürük. Lavrov da vəzifəsində yeni deyil. Həm Rusiyanın, həm də Lavrovun indiyə kimi mövqeyi onu deməyə əsas verir ki, Rusiya əvvəlki siyasətinə sadiq qalacaq. Bizim üçün gələnən nəticə bu olmalıdır. Rusiyanın da mövqeyi bu olub ki, güc tətbiq edilməsin, status-kvo olduğu kimi qalsın. Biz diplomatik müstəvidə Rusiyadan Ermənistana bu məsələ ilə bağlı heç bir təzyiq edildiyini görməmişik. Faktiki olaraq, Rusiya münaqişənin konservləşmiş şəkildə saxlanmasında maraqlıdır. Ona görə də mən Lavrovun açıqlamasında yalnız bir məna axtarıram. Lavrov Rusiyanın yüksək statusa malik olan vəzifə adamıdır. O, hər zaman ermənilərin mövqeyini dəstəkləyib. Hətta erməni kökənli olduğuna dair iddialar da var. Lavrov demək istəyir ki, heç bir vəchlə Azərbaycana torpaqlarını azad etməyə imkan verməyəcəklər. Biz münaqişənin həllində Rusiyadan hər hansı bir xeyrimizə olan tərpənişi gözləməməliyik. Qəbul edirəm ki, onların münaqişənin həllinə birbaşa təsiri var. Ancaq Rusiya elə bir dövlətdir ki, reallıqla razılaşır və hətta hesablaşır. Biz özümüz, aprel döyüşlərində olduğu kimi, ortaya güc qoymalıyıq. Lavrov gözəl anlayır ki, artıq Azərbaycanın səbri tükənir. Danışıqlar fayda verirsə, yeganə həll yolu hərbi yoldur. Ona görə də məhz hərbi güc tətbiqi ilə bağlı sərt mövqe ortaya qoyur".

***Məhəmmədəli QƏRİBLİ***

# "Qondarma Artsax" bayrağı gəzdirən dron futbol meydançasına bomba da gətirə bilərdi...

## Aqil Abbas: "Ermənilər həmişə idman arenalarında bu cür təxribatlara əl atırlar"

**Məlum olduğu kimi, Avropa Liqasının "Düdelanj" - "Qarabağ" oyununun 30-cu dəqiqəsində ermənilər tərəfindən stadionda dronla qondarma "DQR"in bayrağı qaldırılıb və Ağdam komandası buna etiraz edərək oyunu dayandırıb. Daha sonra Lüksemburqun idman naziri "Qarabağ"ın paltardəyişmə otağına gedib və futbolçularımızdan şəxsən üzr istəyib.**




Nazir ölkəsinin Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi saydığını, təxribatçıların tapılaraq cəzalandırılacağını deyib. D.Kerş üzrxahlığını stadionun diktor otağında da elan etdikdən sonra oyun davam etdirilib.

AFFA rəhbərliyi də baş vermiş erməni təxribatına reaksiya verib. Milli assosiasiya rəsmiləri dərhal UEFA ilə əlaqə saxlayaraq, narazılıqlarını bildiriblər. Təxribat haqda stadionda da elan olunub və oyun davam etdirilib. "Qarabağ" oyunda 4:1 hesabıyla "Düdelanj"a qalib gəlib.

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Lüksemburqda "Qarabağ" və Düdelanj" oyunu zamanı baş verən təxribatla əlaqədar vəziyyəti nəzarətdə saxlayır. XİN-in sözçüsü Leyla Abdullayeva bildirib ki, müvafiq tədbirlər görülür: "Azərbaycanın Lüksemburqa akkreditə olunmuş səfiri təxribata cavabdeh şəxslərin tapılması və müvafiq məsuliyyətə cəlb olunmasına əmin olmaq üçün Lüksemburq Xarici İşlər Nazirliyinə müraciət etmək barədə təlimatlandırılıb".

O da məlumdur ki, ermənilər zaman-zaman Azərbaycana qarşı buna bənzər təxribatlara əl atıblar. Baş verənlər göstərir ki, ermənilər öz çirkin niyyətlərindən əl çəkmək istəmirlər.

Məsələyə münasibət

*"Həmin dronları Xankəndidə, Ağdərədə ermənilərin təpələrinə endirmək lazımdır ki, bir də belə qələt etməsinlər"*

bildirən millət vəkili Aqil Abbasın sözlərinə görə, ermənilər həmişə idman arenalarında bu cür təxribatlara əl atırlar: "Bu birinci hadisə deyil. İdman yarışlarında dəfələrlə belə hadisələr olub. Əvvəl "Qarabağ"ın bir oyununda da Rəşad Sadıqov erməninin əlindən bayrağı alıb cırdı. Qaldı ki, təxribatın qarşısını almağın da yolları var. Həmin dronları Xankəndidə, Ağdərədə ermənilərin təpələrinə endirmək lazımdır ki, bir də belə qələt eləməsinlər. Lüksemburqda təhlükəsizlik tədbirlərinin çox zəif təşkil olunduğu səbəbindən belə bir hadisə yaşanıb. Bütün ölkələrdə futbol oyunları zamanı təhlükəsizlik xidmətləri var. Doxsan dəqiqə həmin mühafizəçilərin üzü tamaşaçıya tərəf olur. Bir dəfə çevrilib arxaya baxmırlar. Çünki onlara tapşırılır ki, təhlükəsizliyi maksimum təşkil etsinlər.

**Lüksemburqda isə, demək olar ki, təhlükəsizlik çox zəif təşkil olunmuşdu. O dron yaxın məsafədən idarə olunan drondur. O dronla ora bomba da ata bilərdilər və azarkeşlər də, futbolçular da ölə bilərdilər. Nəticədə böyük faciə yaşanardı. Ona görə də bu, Lüksemburq təhlükəsizlik xidmətinin günahıdır".**

***Vidadi ORDAHALLI***

# Azərbaycanın və Ermənistanın dövlət büdcələri arasında fərq - 15 milyard dollar hara, 4 milyard hara...

**Ermənistan 2020-ci il üçün dövlət büdcəsini qəbul edib. Erməni KİV-nin yaydığı məlumata görə, ölkənin Nazirlər Kabinetinin təsdiq etdiyi sənədə əsasən, gələn il düşmən ölkənin büdcə gəlirləri 1,697 trilyon dram (3,566 milyard dollar), xərcləri isə 1,88 trilyon dram (3,950 milyard dollar) təşkil edəcək.**



***Mübariz Əhmədoğlu:** "Bu cür büdcə ilə Ermənistanın gələcəyindən, inkişafından, hansısa layihələrdən danışmaq, sadəcə, gülüncdür"*

Ermənistan büdcəsinin kəsiri isə 183 milyard dram (384 milyon dollar) olacaq.

Məlumat üçün qeyd edək ki, gələn il Azərbaycanın büdcə gəlirləri 24,484 milyard manat (14,425 milyard dollar), xərcləri isə 25,627 milyard manat (15,099 milyard dollar) təşkil edəcək.

Dollarla müqayisə etdikdə, Azərbaycanın dövlət büdcəsinin Ermənistanı bütün parametrlərdə üstələyərək 4 qat üstünlüyə malik olduğunu söyləmək olar. Ermənistanın Baş naziri Nikol Paşinyan ölkənin inkişafı ilə bağlı populist vədlər verir. Ermənistanın gələcəyi ilə bağlı ağlagəlməz fantaziyalarla çıxış edir. Əvvəlki hakimiyyəti korrupsiyada, talançılıqda ittiham edir. İranla birgə meqalayihələrin həyata keçiriləcəyindən danışır. Azərbaycana yönəlik təhdidedici fikirlər səsləndirir. Bütün bunların fonunda 4 miyard dollarlıq büdcə ilə hansısa inkişafdan, gələcəkdən danışmağın özü gülüncdür.

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, həmin 4 milyard belə şübhəlidir: "Müstəqil Ermənistan tarixində ən intellektual prezident Levon Ter-Petrosyan olub. O hətta SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işləyib. Ter-Petrosyan Azərbaycanla barışmaq yolunu təklif etdi. Ondan sonra Ermənistan prezidenti olanlar savadsız olmaları ilə xarakterizə olunub. Ədalət naminə, Köçəryanla Sarkisyan savadsız olsalar da, bir az biclikləri var idi. Ermənistanın hazırkı Baş naziri Paşinyanda o da yoxdur. Gələn il Ermənistanın dövlət büdcəsinin 4 milyard dollar olacağı deyilir. Ancaq bu rəqəmin özü belə şübhəlidir. Fikrimcə, Ermənistan büdcəsi reallıqda bundan da az olacaq. Paşinyan ümid edir ki, imkanlı ermənilər yardım edəcək və bu minvalla, büdcəni dolduracaq. Bu isə mümkün görünmür. Ən azından, ona görə ki, Rusiyadakı erməni əsilli iş adamları Paşinyandan üz döndərib. Qərbdəki ermənilər də əvvəlki kimi yardım etmirlər.

*"Paşinyan ümid edir ki, imkanlı ermənilər yardım edəcək və bu minvalla, büdcəni dolduracaq, amma..."*

Ona görə də Paşinyan rəqəmlərlə manipulyasiya edir. Yəni büdcəni rəqəmlərlə şişirdir. İstənilən halda, bu cür büdcə ilə Ermənistanın gələcəyindən, inkişafından, hansısa layihələrdən danışmaq, sadəcə, gülüncdür. O cümlədən, Azərbaycanla rəqabət aparmaq mümkün deyil. Azərbaycanın müdafiə və hərbi xərcləri Ermənistanın dövlət büdcəsindən çoxdur".

***Vidadi ORDAHALLI***

# Ermənistanda Antikorrupsiya komitəsi - ölkə korrupsiya girdabında olduğunu rəsmən etiraf edir...

**Ermənistanın yeni Antikorrupsiya Strategiyası çərçivəsində Korrupsiyaya Qarşı Mübarizə Komitəsinin yaradılması planlaşdırılır. Bunu ədliyyə naziri Rüstəm Badasyan hökumətin keçirdiyi iclasda bəyan edib.**



***Arzuxan Əlizadə:** "Ermənistanda korrupsiya ilə bağlı ciddi problemlər var"*

Badasyan qeyd edib ki, strategiyanın qəbul edilməsi strateji yanaşma nəticəsində korrupsiyanın mümkün qədər azaldılmasını, antikorrupsiya institusional sisteminin inkişaf etdirilməsini, korrupsiyaya qarşı effektiv mexanizmlərin yaradılmasını özündə ehtiva edir: "Gələcəkdə bunun daha ixtisaslaşmış və effektiv olması üçün hüquq-mühafizə sistemi tamamilə yenidən nəzərdən keçirilir".

Badasyanın sözlərinə görə, üçillik keçid dövrü ərzində Milli Təhlükəsizlik Xidmətinin əməliyyat hissəsi korrupsiya cinayətləri ilə məşğul olmağa davam edəcək. Xüsusi İstintaq Xidməti və ya İstintaq Komitəsi Korrupsiyaya Qarşı Mübarizə Komitəsi yaranana qədər bəzi hallarda korrupsiya cinayətlərini araşdıra bilər. Bununla belə, Baş Prokurorluqda antikorrupsiya istintaq idarəsinin yaradılması da planlaşdırılır.

Nazir onu da iclasda əlavə edib ki, ixtisaslaşdırılmış antikorrupsiya məhkəməsinin yaradılması da vacibdir.

Ermənistanda korrupsiya ilə bağlı yeni qurumun yaradılması bu sahədə ciddi problemlərin olmasının rəsmən etiraf olunması anlamına gəlir. Düzdür, Paşinyan hər vasitə ilə sözügedən problemin ölkədə geniş yayıldığını pərdələməyə çalışır. Çünki bu onun ziyanına işləyəcək. Ona görə ki, hakimiyyətə gəldiyi ilk vaxtlarda islahatların bu problemi həll edəcəyini deyirdi. Daha sonra bəyan etdi ki, hakimiyyət dəyişikliyindən sonra ölkədə korrupsiya halları azalıb. Bu sahədə baş verən neqativ halları əvvəlki hakimiyyətin üstünə atırdı. Ancaq görünən odur ki, vəziyyət heç də Paşinyanın dediyi kimi deyil. Yəni bu sahədə vəziyyət çox mürəkkəbdir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Ermənistanda korrupsiya ilə bağlı ciddi problemlər var: "İstər əvvəlki hakimiyyətin dövründə, istərsə də hazırda ölkədə korrupsiya ciddi problem olaraq qalır. Yeni qurumun yaradılması da bu sahədə mövcud olan problemlərlə bağlıdır. Paşinyanın islahat imitasiyası bu sahədə dönüş yarada bilməyib. Bu günlərdə Ermənistanda bir sıra korrupsiya hallarının üstünün açılması bunu bir daha təsdiq etdi. Belə ki, Ermənistan Milli Təhlükəsizlik Xidməti tərəfindən aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində bu ölkənin Əmək və Sosial İşlər Nazirliyinin xidməti sahəsində çoxsaylı korrupsiya cinayəti aşkar edilib. Əlillik müddətinin uzadılması üçün müraciət edən Ermənistan vətəndaşından müvafiq vəzifəli şəxslərin rüşvət aldığı müəyyən edilib. Ermənistanda ən çox korrupsiyalaşmış sahələrdən biri ordudur. Bu sahədə çox ciddi neqativ halların olması bir sıra yerli ekspertlər tərəfindən qeyd edilir.

*"...Paşinyan hakimiyyətinin bu sahədə uğur əldə etməsi mümkünsüz görünür"*

Baxmayaraq ki, buna görə bir neçə yüksək rütbəli hərbçi işdən uzaqlaşdırılıb, amma vəziyyət dəyişməyib. Bütövlükdə, Ermənistanda hakimiyyətin bir sıra sahələri korrupsiyalaşıb. Düşünmürəm ki, korrupsiyaya qarşı mübarizə ilə bağlı yaradılan yeni qurum mövcud problemləri həll edə bilsin. Nəzərə almaq lazımdır ki, ölkədə islahatlar aparmaq üçün vəsait olmalıdır. Bu vəsait olmadığına görə Paşinyan hakimiyyətinin bu sahədə uğur əldə etməsi mümkünsüz görünür".

***Vidadi ORDAHALLI***

**Son dövrlərdə banklar tərəfindən verilən istehlak kreditlərinin miqdarında qeydə alınan artımlar artıq rəsmi dairələrdə də ciddi narahatlıq yaradır. Çünki bu hal nəticə etibarı ilə problemli kreditlərin miqdarının artımına gətirib çıxarır.**

# İstehlak kreditləri ilə bağlı daha bir problemli məqam üzə çıxdı

Belə görünür ki, cari ilin əvvəlində dövlət tərəfindən banklara problemli kreditlərin həlli ilə bağlı verilən dəstəkdən bu maliyyə qurumları hələ də lazımi nəticə çıxarmayıb. Belə ki, dövlət bankların istehlak kreditləri əvəzinə real sektora daha çox vəsait ayırmasını gözləsə də, yenidən əks vəziyyət müşahidə olunur. Elə bu səbəbdən məsələnin həlli üçün müəyyən radikal addımların atılması gündəmdədir. Söhbət "İstehlak kreditləri haqqında" qanundan gedir.

Xatırladaq ki, bu məsələ artıq Milli Məclisdə gündəmə gəlib. Deputat Əli Məsimli bildirib ki, Milli Məclis "İstehlak kreditləri haqqında" qanun layihəsi hazırlamalıdır. Onun fikrincə, bu qanun layihəsini banklar hazırlasa, öz maraqlarından çıxış edəcəklər: "Bununla bağlı ayrıca qanun layihəsi hazırlansın, ya da ki, Mülki Məcəlləyə ayrıca bənd əlavə olunsun. Banklar real sektora daha yaxın olmalıdır. Prezident İlham Əliyevin sosial paketi 4 milyon nəfəri əhatə edib. Düşünürəm ki, bu siyasət davam etdirilməlidir". Araşdırmalar da göstərir ki, istehlak kreditləri ilə bağlı ciddi problemlər yaşansa da, bununla bağlı indiyədək qanun layihəsi hazırlanmayıb. Amma artıq bank sektorunda baş verənlər belə bir qanunun hazırlanmasını zərurətə çevirir. Əksər ölkələrdə istehlak kreditləri üzrə xüsusi qanun var. Bu, ilk növbədə bankların kredit müqaviləsinə istədiyi şərti daxil edib, sonra müştəriyə qarşı istədiyi addımın qarşısını almaq üçündür. Digər tərəfdən, belə bir qanun həm də istehlak kreditlərinin zərurət olmadan artımını əngəlləmək iqtidarındadır. Əks təqdirdə banklar istehlak kreditlərini artırmaqda davam edəcək. Azərbaycan Banklar Assosiasiyasının sədri Zakir Nuriyev bunu belə izah edir: "Banklar kommersiya qurumlarıdır və müxtəlif kredit məhsulları təklif etməkdədirlər. İstehlak kreditləri də bunlardan biridir. Müştəri banka istehlak krediti almaq üçün müraciət etdikdə və kriteriyalara uyğun gəldikdə kreditin rəsmiləşdirilməsi məntiqidir. Əgər bu müştərilərin sayı artıbsa, bank daha çox kredit verəcəkdir. Burada əsas diqqət olunmalı məqam bankların niyə istehlak krediti verdiyi yox, istehlak kreditlərinin biznes kreditlərinə nisbətdə daha baha olmasına baxmayaraq onlara daha çox müraciət olunmasıdır.

Bunun əsas səbəbi ölkə əhalisinin gəlirlilik səviyyəsinin artmasıdır. Neftin qiymətinin enməsinin ölkə iqtisadiyyatına mənfi təsirlərindən sonra məsuliyyətli kreditləşmə prinsiplərinin tətbiqi ilə banklar artıq daha sağlam kreditlər verməyə başladılar. Lakin bu, bankların müştəriləri daha dərin təhlil etməsinə və daha seçici davranmasına gətirib çıxardı. Bu səbəbdən istehlak kreditləri ilk zamanlar daha az əlçatan oldu. İndiki dövrdə isə əhalinin gəlirlərindəki, eləcə də iş yerlərindəki artım və bu kimi səbəblərdən mövcud kriteriyalara uyğun şəxslərin sayı, nəticə etibarı ilə istehlak kreditləri artmağa başladı. Burada sual yaranır ki, bir şəxsin gəliri artıbsa, o niyə kredit götürür? İnsanlar pul yığıb ev almaq əvəzinə daha tez olduğu üçün ipoteka krediti əldə etməyə üstünlük verirlər və ya evlərini daha tez təmir etdirmək istəyir, yeni mebellərinə daha tez qovuşmaq niyyətindədirlər, daha uzun istirahəti üstün tuturlar və sair. İstehlak krediti deyə bir məhsulun yaranmasının səbəbi də elə budur: gələcəkdəki mümkün istehlakı cari dövrdə reallaşdırmaq istəyi. İstehlak krediti və biznes krediti nisbətinə gəldikdə isə, burada vəziyyətin nəzarətdə saxlanması və nisbətin tənzimlənməsi vacibdir. Çünki biznes krediti ölkə iqtisadiyyatının katalizatorlarından biridir və firmaların istehlak həcmini, yeni təkliflərini artırmaları üçün olduqca əhəmiyyətlidir".




Beləliklə, bütün bunlar bir daha göstərir ki, müvafiq qanunvericilik olmadan banklar istahlak kreditlərinin verilişini davam etdirəcək və bu da artıq indidən problemli kreditlərin artımına rəvac verir. Qeyd olunduğu kimi, "İstehlak kreditləri haqqında" qanunun hazırlanması tamam başqa vəziyyət yarada bilər. Dövlət İqtisad Universitetinin dosenti Elşən Bağırzadə də vurğulayır ki, ölkəmizdə "İstehlak kreditləri haqqında" qanun layihəsinin hazırlanmasına ehtiyac var: "Elə qaydalar olmalıdır ki, verilən kreditlər istehlaka deyil, daha çox istehsala yönəldilsin. Bir az iqtisadi canlanma olan kimi bizim banklar istehlak sektoruna yönəlirlər. Bu, iqtisadiyyat üçün o qədər də normal hal deyil. Xüsusilə də inkişaf etməkdə olan ölkə üçün istehlakı yox, istehsalı kreditləşdirmək lazımdır. Bununla bağlı ayrıca qanun olmalıdır və istehlaka yönəldilən kreditlər kifayət qədər məhdudlaşdırılmalıdır, kifayət qədər yüksək tələblər qoyulmalıdır. Əhaliyə verilən istehlak kreditləri üçün tələblər ciddi olmalıdır. Yoxsa hər şeyə görə - telefon, maşın, mebel və sair almaq üçün bankdan kredit götürmək düzgün deyil. Bank ilə vətəndaş arasında münasibətlər açıq tənzimlənməlidir. Eyni zamanda istehsala yönəldilən kreditlərin qarşısındakı maneələr ortadan qaldırılmalıdır. Kreditlər real sektora, istehsal sektoruna yönəlməlidir. İstehlak kreditlərinin verilməsi məhdudlaşdırılmalıdır. Bizdə "neft bumu" yaşandığı dönəmdə kifayət qədər insanlar gedib banklardan asan şəkildə kredit götürdülər və banklar da buna şərait yaratdı.

Sonradan da borclanma problemi ortaya çıxdı və dövlət bunların hamısını ödəməyə məcbur oldu. Azərbaycanda "İstehlak kreditləri haqqında" qanuna ehtiyac var". Real vəziyyət də göstərir ki, bu gün ölkədə maliyyə müştərisi və ya maliyyə xidmətlərinin istehlakçısının hüquqları tam qorunmur. Mövcud qanunlar daha çox bank və kredit təşkilatlarının mənafeyini müdafiə edir. Belə ki, Azərbaycanda istehlakçı hüquqlarını qoruyan qanun, eləcə də Mülki Məcəllə var, amma onlar daha çox ümumidir. Ekspertlər hesab edir ki, sırf ixtisaslaşmış istehlak krediti haqqında qanun olmalıdır ki, bankların öhdəlikləri, vətəndaşların hüquqları burada çox açıq şəkildə göstərilsin. Məhz bundan sonra istehlak kreditləri ilə bağlı problemin əhəmiyyətli dərəcədə həlli gözlənilir.

***Tahir TAĞIYEV***

**Son proseslərin təhlili Azərbaycanın Cənubi Qafqazda Rusiyanın əsas tərəfdaşına çevrilməkdə olduğunu aydın nümayiş etdirir. Xüsusən də iqtisadi sahədə Moskva Bakı ilə daha böyük işbirliyi qurmağa, yeni transmilli layihələr reallaşdırmağa can atır.**

# Atom elektrik stansiyası Azərbaycanla Rusiyanın yeni birgə mühüm layihəsinə çevrilə bilər



Ekspertlər vurğulayır ki, bütün bunlar səbəbsiz deyil və ötən dövr ərzində Azərbaycanın siyasəti onun etibarlı və mühüm bir tərəfdaş olduğunu təsdiqləyib.

Digər tərəfdən nəzərə almaq lazımdır ki, regionda Gürcüstanın daha çox Qərblə əməkdaşlığa can atması, anti-Rusiya xarakterli siyasəti onun Moskva ilə münasibətlərində ciddi böhran yaradıb. Ermənistan hazırda Rusiyanın gözündə əsl xəyanətkar dövlət kimi qəbul olunur. Azərbaycan isə indiyə qədər uğurlu siyasəti nəticəsində təkcə Qərb yox, həm də Rusiya üçün etibarlı tərəfdaş statusunu qazanıb. Elə bu səbəbdən Rusiya Azərbaycanla əməkdaşlığı daha da inkişaf etdirməkdə olduqca maraqlıdır. Bu məsələ Soçidə Azərbaycan Prezidenti İlham Əliyevin rus həmkarı Vladimir Putinlə görüşündə də diqqət mərkəzində yer aldı. Görüş zamanı Vladimir Putinin diqqət yetirdiyi əsas məqamlardan biri məhz iqtisadi müstəvi oldu: "Ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir. Ticari-iqtisadi əlaqələr möhkəmlənir. Keçən il əmtəə dövriyyəsinin həcmi 2,5 milyard dollar olub. Bu istiqamətdə yaxşı perspektivlərimiz var. Mən o planları nəzərdə tuturam ki, onların əsas müəllifi Azərbaycan prezidentidir. Biz də öz tərəfimizdən, bu konkret, mənim fikrimcə iri layihələrin reallaşması üçün bizdən asılı olan hər şeyi edirik. Bunun üzərində hökumətlərarası komissiya işləyir və zənnimcə, kifayət qədər inamla işləyir".

Elə Azərbaycan Prezidenti də iqtisadi sahədə baş verənlərə xüsusi toxundu: "Ticari-iqtisadi sahədə müsbət dinamikanı qeyd etmək istərdim. Əmtəə dövriyyəsi artır - keçən il də, bu il də. Bizdə olan məlumata görə, avqust ayına qədər artım 20 faizdən çox olub. Sizinlə bizim təsdiq etdiyimiz "Yol xəritələri"nin reallaşdırılması da, əlbəttə, daha sıx qarşılıqlı fəaliyyətə, bütün sahələrdə inteqrasiyaya və əməkdaşlığa gətirib çıxaracaq. Bizim üçün Rusiya ən mühüm tərəfdaş, dost, mehriban qonşudur". Bütün bunlar fonunda belə məlum olur ki, qarşıdakı dövr ərzində Rusiya və Azərbaycan yeni böyük birigə layihələr reallşdırmaqda davam edəcək. Məsələn, nəqliyyat sahəsində "Şimal-Cənub" dəhlizinin daha da genişləndirilməsi gözlənilir. Digər bir mühüm və yeni layihə isə enerji sahəsində olacaq. Söhbət Azərbaycanda atom elektrik stansiyasının (AES) inşasından gedir.

Məlumata görə, Rusiyanın dövlət şirkəti olan "Rosatom"un baş direktoru Aleksey Lixaçov Vladimir Putinlə İlham Əliyevin görüşünün nəticəsini şərh edərkən bildirib ki, Rusiya Azərbaycanda atom elektrik stansiyası tikməyi təklif edib: "AES azərbaycanlı tərəfdaşlarımız necə istəsə, elə də olacaq. Biz güclü stansiya təklif edirik". Onun sözlərinə görə, Azərbaycanın özəlliyi ciddi tələbatın artmağındadır. Baş direktor qeyd edib ki, 2018-ci ildə azərbaycanlıların elektrikə olan tələbatı və istehsalı 14 faiz artıb və bu böyük rəqəmdir.

Xatırladaq ki, Rusiya Azərbaycanda belə stansiyanın inşasına ötən ildən maraq göstərdiyini açıqlayıb. Hələ ötən ilin dekabrında məlumat yayılmışdı ki, Rusiyanın "Rosatom" prezidenti İlham Əliyevə, ölkədə atom elektrik stansiyasının tikintisi də daxil olmaqla, nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq təklif edib.

O vaxt bu haqda danışan "Rosatom"dakı mənbə bildirirdi: "Azərbaycanda nüvə sənayesi var, amma atom elektrik stansiyası yoxdur. "Rosatom" təklif verib. Azərbaycan tərəfi düşünür. İki seçim təklif etmişik. Birincisi dərhal AES inşaatına başlamağı nəzərdə tutur. SSRİ dövründə AES tikintisi üçün ərazi də seçilmişdi, bu səbəbdən həmin ərazidə birbaşa inşaat işlərinə başlanıla bilər".

İkinci variant isə Rusiya ilə Azərbaycan arasında nüvə enerjisi sahəsində əməkdaşlığın mərhələli şəkildə inkişaf etdirilməsini nəzərdə tutur. Mümkün AES layihəsinin maliyyələşdirilməsi məsələsi barədə danışan mənbə qeyd edib ki, Bakının Rusiyadan kredit istəyəcəyini düşünmür: "Azərbaycan tərəfinin layihəni öz maliyyə qaynaqları ilə həyata keçirəcəyini təxmin edirəm". Qeyd edək ki, Azərbaycanda son illər nüvə enerjisindən dinc məqsədlə istifadə sahəsində müəyyən addımlar atılıb. 2014-cü ildə Prezident İlham Əliyev "Milli Nüvə Tədqiqatları Mərkəzi" QSC yaradıb. İndi isə Aleksey Lixaçov ölkəsinin Azərbaycanda AES inşa etmək niyyətini yenidən dilə gətirib. Azərbaycanda enerjiyə artan tələb isə bunu mümkün edir və prosesdə Bakı maraqlı olduğunu da gizlətmir. Hesab olunur ki, AES inşası Azərbaycana daha çox enerji hasil etməyə, eyni zamanda elektrik üçün istifadə olunan təbii qazın əsas hissəini ixraca yönəltməyə imkan verəcək. Bu fonda Bakı belə bir stansiyaya maraq göstərir. Onu da xatırladaq ki, Azərbaycanın qonşularının bəzilərində də bu stansiyalardan ya istfiadə olunur, ya da onların qurulması isttiqamətində iş aparılır. Hazırda qonşularımızdan Gürcüstan istisna olmaqla, digər ölkələr belə stansiyalardan istifadə edir. Düzdür, Türkiyədə hələlik belə stansiyanın tikintisi gedir. Rusiyanın layihəsi əsasında Türkiyədə tikilən "Akkuyu" AES-in ilk fazasının 2023-cü ilin yazında istifadə verilməsi nəzərdə tutulur. Başqa bir mühüm məqam odur ki, hazırda dünya miqyasında atom elektrik stansiyalarından istifadəyə marağın gedərək artması müşahidə olunmaqdadır. Belə ki, müasir təhlükəsizlik tədbirlərinin tətbiqi ilə qurulan belə stansiyalar enerji təhlükəsizylinin təmin edilməsində böyük əhəmiyyət kəsb edir. Hazırda dünya elektrik istehsalının təxminən 20%-i məhz bu stansiyaların payına düşür.

Bu sahədə Fransa, ABŞ, Yaponiya, Almaniya, Cənubi Koreya və Rusiya lider hesab olunur. Təkcə Fransa bütün enerjinin 80%-ə qədərini atom elektrik stansiyalarından hasil edir. Azərbaycanın da dinamik inkişaf edən ölkə kimi perspektivdə belə stansiyaya ehtiyacının olacağı istisna deyil.

Yəni Azərbaycanın dinamik inkişafı ölkədə perspektivdə AES inşasını mümkün hala gətirir. Bu arada bir məqamı da xatırladaq ki, işğalçı Ermənistan ərazisində ikinci belə stansiyanın inşası üçün Rusiya ilə uzun müddətdir danışıqlar aparsa da, Moskva buna razılıq vermir. Amma Rusiya özü Azərbaycanda bu stansiyanın inşası üçün ölkəmizə, belə demək mümkünsə, özü minnətçi düşüb.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# "Valday" klubundakı proseslər təcavüzkar İrəvanı tam oyundankənar vəziyyətə saldı

**Son günlərdə diqqət cəlb edən mühüm hadisələrdən biri Azərbaycan və Ermənistana münasibətdə Rusiyanın tutduğu mövqe, bunun Dağlıq Qarabağ münaqişəsinin gələcəyinə necə təsir edəcəyidir. Hazırda görünən budur ki, Moskvanın İrəvanla münasibətlərinin sürətlə pisləşməyə doğru getdiyi bir vaxtda Bakı ilə tamam əks proses müşahidə olunur.**

Təbii ki, burada liderlər amili də birbaşa rol oynayır. Hər halda, Rusiya prezidenti Vladimir Putinin Azərbaycan və Ermənistan liderlərinə münasibəti bu xüsusda çox şey ifadə etdi.

Xatırladaq ki, Ermənistan Avrasiya İqtisadi Birliyinin zirvə toplantısına ev sahibliyi edən zaman baş nazir Nikol Paşinyan, protokol qaydalarına görə, Vladimir Putinin onunla görüşəcəyinə ümid edirdi. Amma Putin Ermənistana səfərdən öncə onunla görüşməyəcəyini bildirdi. Düzdür, Paşinyan öz evində yalnız son anda Putinin qəbuluna düşə bildi. Sammitin sonunda Ermənistan baş naziri ilə Rusiya prezidentinin görüşü keçirildi. Ermənistan mediası yazır ki, rəsmi İrəvan bu görüşün baş tutması üçün dəridən-qabıqdan çıxıb, dəfələrlə Moskvaya xahiş zəngləri edilib. Şübhəsiz ki, Rusiya liderinin eyni ittifaqlarda təmsil olunduqları Ermənistanın baş nazirinə soyuq münasibətinin səbəbi Nikol Paşinyanın apardığı etibarsız siyasət, dünyada və regionda mövcud reallıqlardan xəbərsiz olması, yaxud şərtləri nəzərə almaması, bütün fəaliyyətinin populizmdən başqa bir şey olmamasıdır. Rusiya prezidenti İrəvanı tərk edərkən Paşinyanın onu hava limanına qədər ötürməsi və sağollaşarkən qucaqlamağa çalışması, Putinin buna verdiyi reaksiya erməni baş nazirin həqiqətən də gülünc bir duruma düşdüyünü göstərdi. Ermənistanın "Iragir" saytı isə yazır ki, Paşinyanı saymayan Putin bunun əvəzində Azərbaycan lideri İlham Əliyevlə görüşə tələsirdi. Rusiya prezidentinin İrəvandan Paşinyanı hava limanında qoyub Azərbaycan lideri ilə görüşə tələsməsi təsadüfi deyil. Elə Prezident İlham Əliyevin dünyanın məşhur "beyin mərkəzləri"ndən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar iclasına dəvət olunması da bu kontekstdə diqqət çəkir. Məsələ burasındadır ki, Azərbaycan regionun gələcəyini müəyyənləşdirən, dünyanın siyasi-iqtisadi prosesinə yön verə bilən dövlətdir. Bunu Putin də yaxşı başa düşür.

"Vahid Ermənistan" Partiyasının rəhbəri Artur Qazinyan isə baş verənlər fonunda qeyd edir ki, Ermənistan Rusiyanı itirməkdə, Azərbaycan qazanmaqdadır: "Ermənistan Avrasiya İqtisadi Birliyinin zirvə toplantısında baş verənlər fonunda Rusiyadan uzaq düşdüyünü nümayiş etdirdi. Yeni Ermənistan hakimiyyəti Avrasiya İqtisadi Birliyinin iclasını "erməni inqilabı"nın nailiyyəti kimi təqdim etməyə nə qədər çalışsa da, mən onları məyus etməliyəm, çünki İrəvan görüş yeri olaraq, Avrasiya İqtisadi Birliyinin rəhbərlərinin Paşinyanın əlini sıxmaq istəməsi üçün seçilməyib. Sadəcə ona görə seçilib ki, Ermənistann hazırda bu quruma sədrlik edir və qəbul edilmiş prosedura görə, Ali Şuranın iclasları quruma sədrlik edən ölkədə keçirilməlidir. Buna görə də hökumət təbliğatçılarını vətəndaşlarımıza həqiqəti söyləməyə çağırıram. İran və Sinqapur liderlərinin Ermənistana səfəri əsasən Avrasiya İqtisadi Birlyinin Ali Şurasının iclasında iştirak etməklə əlaqədar olub və bunu Rusiya Federasiyası prezidenti təşkil edib. Yəni Ermənistan hakimiyyətinin yürütdüyü xarici siyasətlə az əlaqəsi olub. Putinin Ermənistana səfəri isə bir əsas səbəbə görə baş verdi: Avrasiya İqtisadi Birliyi Putin üçün çox vacibdir və o, bu təşkilatın beynəlxalq nüfuzuna xələl gətirəcək heç bir addım atmazdı. Bu fonda Ermənistan-Rusiya münasibətləri hazırda ciddi böhran vəziyyətindədir. Bunun bariz sübutu Paşinyanın "Putinlə maraqlı söhbət olub" deməsidir. Qeyd etmək lazımdır ki, dövlət başçılarının "söhbəti" olmur, onlar arasında gündəm mövzularına dair müzakirələr və ya danışıqlar olur. Buradan aydın olur ki, Putinin Ermənistana səfəri ikitərəfli gündəliyə malik deyildi və yalnız Avrasiya İqtisadi Birlyinin Ali Şurasının iclasında iştirakı nəzərdə tutulub. Putin-Paşinyan söhbətinin nəticələri yaxın gələcəkdə məlum olacaq. Amma indidən demək olar ki, bu nəticələr Ermənistann lehinə deyil".

Rusiyalı politoloq Vadim Dubnov da məsələyə eyni prizmadan yanaşır. O, Paşinyanın Putin üçün indi arxa planda olduğunu vurğulayır: "Elə bu səbəbdən Vladimir Putinlə ölkənin ikinci prezidenti Robert Köçəryanın həyat yoldaşı Bella Köçəryan arasında görüş oldu. Halbuki, Paşinyan bunun əleyhinə idi. Putin Köçəryanın özü ilə görüşmədi, ancaq diplomatik qaydalara riayət olunan və danışdığım trol alternativini tapdı. Düşünmürəm ki, bu görüş çox vacib idi, lakin çox gözlənilməz oldu və yeni bir siqnal oldu". Rusiyalı analitik bildirib ki, Moskva Paşinyanın bunu necə qəbul etməsində o qədər də maraqlı deyil. Erməni politoloq Sarkis Artsruni isə xatırladır ki, Robert Köçəryanın arvadı ilə görüşməklə Putin eks-prezidentə bir daha şərtsiz siyasi dəstəyini təklif etmiş olub: "Burada həm də Köçəryanın indiki Ermənistan hökumətini devirəcəyinə söz verdiyini unutmayaq. Bütün bunların kontekstində Putinin bu hərəkəti Köçəryanın mühakimə olunmasına və tutulmasına qarşı möhkəm mövqe tutan Ermənistana və onun cəmiyyətinə düşmənçilik münasibətidir. Ancaq Rusiya prezidentinin daha qlobal olan mesajları daha vacibdir. Putin köhnə sistemi bərpa etmək istəyən bütün qüvvələrə, iş adamlarına razılıq mesajı göndərir. Rusiya prezidenti əslində Ermənistandakı "beşinci kolon" fəallığını təşviq edən qüvvəyə çevrilir. Digər tərəfdən, Rusiya prezidenti açıq şəkildə Ermənistanın daxili işlərinə qarışır, bütün hallarda Robert Köçəryana birbaşa və ya dolayı dəstək ifadə edir. Keçmiş müdafiə naziri Mikayel Arutyunyanın və "1 Mart" hadisəsi ilə əlaqədar mühakimə olunan istintaq qrupunun keçmiş rəhbəri Vahan Arutyunyanın Moskvada təhlükəsiz olması faktını da bura əlavə etmiş olsaq, mənzərə daha dolğun görünməyə başlayır".

Beləliklə, Putinin mövqeyi Paşinyan iqtidarının Putin üçün ikinci planda olduğunu təsdiqləyir. Amma əvəzində Azərbaycan - Rusiya münasibətləri tamam fərqli bir məcrada inkişaf edir. Putinin İrəvana gedişi, ardınca Soçidə Azərbaycan lideri ilə görüşü əslində regionda yeni proseslərin başlanğıcıdır və bu proseslərdə Bakı əsas faktorlardan biridir. Özü də bu proseslərdə yer alan mühüm məqamlardan biri məhz Qarabağ münaqişəsi ilə bağlıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin rusiyalı həmkarı ilə görüşündə toxunduğu əsas məsələlərdən biri məhz bu münaqişə ilə bağlı olub. Prezident Administrasiyasının Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri Hikmət Hacıyev də bunu təsdiqləyir: "Dövlət başçılarının görüşündə Dağlıq Qarabağ münaqişəsi də müzakirə olundu. Bildiyiniz kimi, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biridir. Rusiya münaqişənin həlli prosesində yaxından iştirak edir və ona görə də bu müstəvidə də dövlət başçıları tərəfindən ətraflı fikir mübadiləsi aparıldı. Onu da qeyd edim ki, prezidentlər əvvəlcə nümayəndə heyətləri ilə birgə, daha sonra isə təkbətək formatda görüşü davam etdiriblər. Bu məqam xüsusi vurğulanmalıdır. Çünki Prezident İlham Əliyevlə rusiyalı həmkarı Vladimir Putin arasında şəxsi dostluq münasibətləri mövcuddur. Bu məqam iki ölkə arasındakı münasibətlərə müsbət impuls verir". Bunlar fonunda Paşinyanın Qarabağ münaqişəsi ilə bağlı sərsəmləmələrinin Rusiya tərəfindən də rədd edilməsi təsadüfi sayılmır. Xatırladaq ki, "Valday" klubunun iclasında Rusiya xarici işlər naziri Sergey Lavrov Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı sualı cavablandırarkən bildirdi ki, Qarabağın Ermənistanın olması barədə bəyanatlar münaqişənin həllinə, siyasi prosesin tənzimlənməsinə kömək etmir. Bununla Paşinyanın məlum bəyanatının Rusiya tərəfindən də mənfi qarşılanması bir daha təsdiqini tapdı. Bu məqama toxunan Hikmət Hacıyev qeyd edir: " Təbii ki, Lavrovun Paşinyanın məlum bəyanatı ilə bağlı bir müddət öncə səsləndirdiyi fikirləri qeydə götürmüşük. Ümumiyyətlə, bu, ATƏT-in Minsk Qrupunun həmsədrləri və beynəlxalq ictimaiyyəti narahat edən məsələdir. Çünki Ermənistanın rəhbərliyi bu açıqlaması ilə danışıqlar prosesinə çox güclü bir zərbə vurmuşdur. Görünən odur ki, Paşinyanın bu bəyanatı həmsədr ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən ciddi bir narahatlıqla qarşılanıb və burada başqa münaqişələrlə anneksiya xarakteri daşıyan münaqişələr kontekstində analogiyalar da aparılıb…Bütün bunlar göstərir ki, Ermənistanın bugünkü açıqlamaları və fəaliyyəti beynəlxalq ictimaiyyəti ciddi şəkildə narahat etməkdədir. Rusiya da ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi olaraq xarici işlər naziri səviyyəsində bu məsələ ilə bağlı öz mövqeyini ifadə edib".

Digər məsələ Azərbaycan Prezidentinin "Valday" klubunun iclasında etdiyi çıxışında Dağlıq Qarabağ münaqişəsindən danışarkən "Qarabağ Azərbaycandır! Nöqtə yox, nida işarəsi!" kimi mühüm fikir səsləndirməsidir. O bunu sıravi insanlara deyil, Vladimir Putinə, tədbirdə iştirak edən dövlət və hökumət başçılarına, siyasi fikir adamlarına bir daha çatdırıb. "Valday" klubunda müasir dövrün aktual məsələlərinin müzakirə olunduğunu nəzərə alsaq, Prezidentin bəyanatını Nikol Paşinyana və onun kimi düşünənlərə kifayət qədər sərrast cavab da adlandırmaq olar. Eyni zamanda bu, "Valday" klubunun iştirakçılarına Azərbaycanın qətiyyətli mövqeyinin növbəti nümayişi oldu. Bunlar fonunda indi maraq doğuran məsələ Qarabağ məsələsində hadisələrin hansı səpkidə inkişaf edəcəyidir. Görünən budur ki, yaranmış vəziyyətdə Ermənistan getdikcə təkləndiyi halda, Azərbaycanın mövqeyini dəstəkləyənlər artır və bura Rusiya da daxildir. Təbii ki, belə vəziyyət öz növbəsində konfliktin həllini də tezləşdirir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Saxta əlillərin sayı 2500-dən çox oldu, sərt tədbir görüldü...

**Məlum olduğu kimi, ölkəmizdə bəzi insanlar heç bir əlillik göstərici olmadığı halda saxta yollarla əlillik dərəcələri alır, buna görə onlara müxtəlif məbləğdə pensiya və müavinətlər təyin edilirdi. İndiyə qədər saxta əlillik dərəcəsi alan xeyli sayda insanın əlillik dərəcəsi ləğv edilib.**

Bu da dövlət büdcəsinə dəyən zərərin qarşısının alınmasına xidmət edib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev mətbuata bildirib ki, bu il ərzində 2500-ə qədər şəxsin əlilliyi saxta olduğu üçün ləğv olunub. Nazir qeyd edib ki, bunun nəticəsində dövlət büdcəsinə təqribən 13 milyon manat qənaət olunub.

Nazirin bildirdiyinə görə, müxtəlif istiqamətlər üzrə saxtakarlıq hallarına qarşı mübarizə aparılır. Pensiya sistemində vəfat etmiş şəxslər, saxta yolla pensiya əldə etmiş şəxslərlə bağlı mütəmadi olaraq monitorinq aparılır və onların pensiya təminatı dayandırılır.

S.Babayev, həmçinin, qeyd edib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ünvanlı sosial yardımla bağlı da monitorinqlər davam edir: "Elektron bazalar üzərindən aparılmış yoxlamalar nəticəsində - hələlik səyyar yoxlamalar aparılmayıb - saxta yollarla ünvanlı sosial yardım əldə edən və ya buna çalışan şəxslərlə müxtəlif tədbirlər görülür. Bu gün Azərbaycanda 70 mindən çox ailə, yəni 270 mindən çox insana ünvanlı sosial yardım verilir. Bu yardımların orta məbləği 200 manatdan çoxdur. Bu məbləğ il ərzində artır. Lakin ünvanlı yardım insanların işləməməsi üçün stimul olmamalıdır. Tam əmək qabiliyyətli, hər hansı bir üzürlü səbəb olmadan işləməyən insanların işləməsi məcburi sayılır. Çox təəssüf ki, bu istiqamətdə bəzi işbazlar saxta əmək müqavilələri əldə etməyə çalışırlar. Məlum olub ki, bəzi şirkətlərin onlarla, bəzən isə yüzlərlə ünvanlı sosial yardım alan işçisi var. Bu işçilərlə əmək müqaviləsi imzalanıb".

Nazirin sözlərinə görə, ünvanlı sosial yardım almaq üçün edilən elektron müraciətlərdən sonra bu müqavilələr ləğv edilib. Bu müqavilələr üzrə hər hansı sosial sığorta və digər ödənişlər edilməyib: "Aydın şəkildə görünür ki, bu şirkətlər, daha doğrusu, fərdi sahibkarlar sırf manipulyasiya ilə məşğul olaraq ünvanlı sosial yardım sisteminə əlavə vətəndaşların cəlb edilməsinə əl atıblar. Ona görə də elektron sistem üzərindən araşdırma aparılıb. İlk nəticə olaraq 800-ə qədər ünvanlı sosial yardım alan şəxslərlə bağlı tədbir görülüb".

S.Babayev bildirib ki, bu araşdırma oktyabr ayı ərzində davam edəcək. Çünki ilkin risq kateqoriyasına daxil olan 3000-dən çox şəxs var. Nazir bu araşdırmanın nəticələrinin bu ay ərzində açıqlanacağını söyləyib. O, vətəndaşlara bununla bağlı bir daha müraciət edərək deyib ki, ünvanlı yardıma görə müraciət üçün hər hansı vasitəçiyə ehtiyac yoxdur. Bunun üçün tam şəkildə elektronlaşdırılmış müraciət forması mövcuddur: "Vətəndaşlar, sadəcə, diqqətli oxuyaraq bu müraciət formasını doldurmalıdırlar. Vətəndaşların heç şirkətlə, əlavə şəxslərlə təmas qurmasına ehtiyac yoxdur".

Mövzunu şərh edən ekspertlər hesab edirlər ki, saxta yolla əlillik dərəcəsi alan adamların bu gün əlillik dərəcəsinin kütləvi olaraq ləğv edilməsi müsbət haldır. Saxta əlillik dərəcəsi alan adamlara qarşı mübarizənin gücləndirilməsinin effekt verəcəyini deyən ekspertlərin sözlərinə görə, vaxtilə müəyyən həkimlər, əlillik dərəcəsini müəyyən edən ekspertlər pul müqabilində bəzi vətəndaşlara əlillik dərəcəsi veriblər. Saxta əlillik dərəcələrinin verilməsinin dövlət büdcəsinə əlavə yük olduğunu qeyd edən ekspertlər hesab edirlər ki, il ərzində 2500 saxta əlillik alan insanın əlillik dərəcəsinin ləğvinə nail olmaq müsbət göstəricidir. Ekspertlərə görə, saxta əlilliklə mübarizənin effektiv təşkil edilməsi sahəsində 2500 nəfər artıq bu kateqoriyaya aid edilməyəcək.

"Sosial hüquqların araşdırılması" İctimai Birliyinin sədri M.Əliyevin sözlərinə görə, son dövrlər bu sahədə mübarizə tədbirlərinin gücləndirilməsi nəticəsində saxta yolla əlillik dərəcəsi alan adamların müəyyənləşdirilməsi, onların bu dərəcəsinin ləğv edilməsi təqdirəlayiq haldır. O qeyd etdi ki, uzun illərdir saxta əlillik alan adamların olduğu barədə həm ekspertlər, həm də rəsmi qurumlar açıqlamalar verirdi, lakin bu istiqamətdə elə güclü addımlar atılmırdı. Amma son bir ildə bu istiqamətdə ciddi addımlar atıldığını deyən M.Əliyevin sözlərinə görə, əlillik dərəcəsi alanlar zaman-zaman Tibbi-Sosial Ekspert Komissiyasının (TSEK) "test"indən keçirilirlər və həqiqətən də vətəndaşın əlilliyi yoxdursa və nə zamansa bu dərəcəni saxta yolla alıbsa, həmin şəxslərin əlillik dərəcəsi ləğv edilir.

Onun bildirdiyinə görə, vaxtilə aparılan araşdırmalar zamanı məlum olub ki, əlillik pensiyası alanların 60 faizi saxta arayışlarla status əldə edib. Bunun nə dərəcədə dəqiq olduğunu bilmədiyini deyən M.Əliyev hesab edir ki, uzun illərdən sonra saxta yollarla əlillik dərəcəsi alan adamların bu statusunun ləğv edilməsi müsbət nəticələr verəcək. "Çox təəssüf ki, bizim vətəndaşlar arasında qanunsuz yollarla əlillik dərəcəsi, həmçinin, buna görə pensiya və müavinət alanlar da olub. Saxta əlillik sənədlərinin alınmasının kütləviləşməsi ötən əsrin 90-cı illərinin ortalarına təsadüf edir. Yəni bu tendensiya həmin dövrlərdən müşahidə edilməyə başlayıb. Müəyyən adamlara saxta əlillik dərəcələrinin verilməsi bəzi adamlar üçün çox "gəlirli" sahəyə çevrilmişdi. Bu da bilirsiniz ki, böyük narazılıqlar yaradırdı. Çünki bir ölkədə bu qədər əlilin olması təəccüblü görünürdü. Artıq bu istiqamətdə ciddi işlər görülür, bu sahədə faydalı dönüş müşahidə edilməyə başlayıb. Artıq bu mübarizə tendensiyası bütün ölkəni əhatə edir. Həyata keçirilən tədbirlər, araşdırmalar nəticəsində Azərbaycanın bütün regionlarında da bu proses eyni dərəcədə aparılır.

Hesab edirəm ki, saxta yolla əlillik dərəcəsi alan adamların bu statuslarının ləğv edilməsinin ən böyük faydalarından biri dövlət vəsaitinin aidiyyətsiz yerlərə yönəldilməsinin qarşısını almasıdır. Saxta yolla əlillik alan adamların özlərinə də yəqin ki, müəyyən sərt cəzalar veriləcək. Amma il ərzində 2500 nəfər saxta əlillik dərəcəsi alan insanın əlillik statusunun ləğv edilməsi çox effektiv nəticələr verəcək, bu sahədə baş verən belə halların qarşısını alacaq. Fikrimcə, bu, digər vətəndaşlara da bir örnək olacaq ki, onlar da nə vaxtsa belə saxta əməllərə əl atmasınlar. Saxta əlilliyə qarşı həyata keçirilən mübarizə prosesi həm də əlillik dərəcəsi verən qurumların öz işlərinə daha şəffaf, daha ədalətli yanaşmasını tələb edəcək. Onlar daha bu cür neqativlərə yol verməyəcəklər. Bilirsiniz, saxta əlillik dərəcəsi alan adamlara statuslar bu gün verilməyib, onlar illərdir saxta əlillik vəsiqəsi daşıyaraq dövlətin pulunu mənimsəyiblər" - deyə M.Əliyev vurğuladı.

**Mayıs Əliyev:** *"2500 nəfər saxta əlillik dərəcəsi alan insanların əlillik statusunun ləğv edilməsi çox effektiv nəticələr verəcək"*



*"Artıq bu mübarizə tendensiyası bütün ölkəni əhatə edir"*

***İradə SARIYEVA***

**Şərqi Afrikanın subekvatorial iqlim qurşağında ibtidai insan sürüsü halında tropik meşələrdə, cəngəlliklərdə, çılpaq qayalıqlarda, təbii mağaralarda, çay vadilərində və yarğanlarda (Həbəşistan dağlıq yaylası, Omo çayı hövzəsi hüdudlarında) yaşayan ibtidai proto-hay qəbilə-tayfa sürüsü üzvlərinin bioloji, etno və morfoloji əcdadları (indikilərin antropoloji şəcərə sələfləri) olmuş tiqran, tiqrau, tiqr... sürülərinin qitədaxili miqrasiyasının (e.ə. III-II minilliklər) təbii-coğrafi məkan baxımından bir mərhələsi də Nil çayı hövzəsi və Qırmızı dəniz sahilləri ilə bağlıdır.**

# İbtidai hay sürüsünün etno-morfo və psixoloji təkamülündə təbii şəraitin rolu

**(VII yazı)**

Bu məsələnin tədqiq-təhlil edilməsi və öyrənilməsi ona görə vacibdir ki, indiki hay sürüsünün dayanıqlı, dəyişilməz ibtidai şüurunun gen daşıyıcılarının (protohay sürülərinin) bioloji xüsusiyyətlərinə həm də Afrika qitəsinin təbii-coğrafi şəraiti kəskin surətdə təsir göstərib. Bu ərazilərdə fərqli temperatur amplitudu, səhra landşaftı, hövzənin yarğan-mağara məkanlarının şiddətli təsiri köçəri həyat tərzinə malik protohay sürüsünün etnopsixoloji gen mənbəyində ziddiyyətli durum və irqi mənsubluqda qonşulara qarşı dözümsüzlük hissinin formalaşması ilə nəticələnib. Nəticədə indiki anlamda olan bu protohay ibtidai insan sürülərinin həmin ərazilərdə təbii şəraitə uyğunlaşma və yerli tayfalarla fizioloji və bioloji baxımdan assimlyasiyası sonrakı dövrlərdə onların əxz etdikləri və etno-morfo gen daşıyıcılarına çevrilmiş düşüncə və yaşam tərzinin inkişafına, eləcə də bədən-başkəllə quruluşunun, sifət cizgilərinin, rəng çalarlarının, hiss-düşüncə duyğularının... özəlliyinə səbəb olub (çünki Cənubi Qafqazda yerli kökənli bu cür irq nümayəndələrinə, fonetik-leksik dil daşıyıcılarına minilliklər boyunca rast gəlinməyib). Təsadüfi deyil ki, sovet alimi Y.Perepelkin (1903-1982) özünün "Qədim Misirin tarixi" əsərində Afrika qitəsinin təbii şəraitinin yerli və bu ərazilərə köç etmiş qəbilə-tayfa icmalarının həyat tərzinə təsiri, köçəri tayfaların daxili miqrasiyası və muzdlu qüvvə kimi hakim qüvvələr tərəfindən istifadəsi barədə ətraflı məlumat verir.

Ona görə də belə nəticəyə gəlmək mümkündür ki, protohay ibtidai insan sürülərinin şüur-davranış instinkti ilkin olaraq onların mağara həyatlarından doğan (eramızdan əvvəl VI-IV minilliklər ərzində) və sonrakı mərhələlərdə Həbəşistan dağlıq yayalası, Nil çayı hövzəsi, Qırmızı dəniz sahilləri və Nubiya səhraları boyunca köçəri həyatları boyunca qazanılan irqi-genetik amillər ilk növbədə Afrika təbiətinin özəllikləri ilə sıx bağlıdır. Bu baxımdan həmin mərhələnin davamı olaraq Həbəşistan dağlıq yaylasından Afrikanın şimal-şərq ərazilərinə yayılması dövrü eramızdan əvvəl II-I minillikləri əhatə edib.

Protohay sürülərinin etno-morfo xüsusiyyətlərinin Afrika mərhələsi ilə indiki dövr etno-morfo kompleks durumları müqayisə edildikdə və təbii-coğrafi amillərin təsiri öyrənildikdə onların indiki məskunlaşdıqları, son 200 ili əhatə edən Qərbi Azərbaycan təbiətinin şəraiti və iqlimi də nəzərə alınmalıdır. Belə ki, protohay ibtidai insan sürüsünün irqi mənsubiyyəti zənci-afrikalı (həbəş) qoluna aid olmalarını sübut edən bədənlərinin fizioloji-bioloji quruluşu (yastı-yapalaq, əyri pəncəli, kürəkləri qabarıq, başları irəli uzanmış halda), sifət görüntüsü (enli-taxtalı, başlarının arxa hissəsinin yastı, çənələrinin qabağa çıxmış halı), üz rəngləri (qara, tünd-qəhvəyi, qızardılmış dəmir misallı) Cənubi Qafqaz iqlimi və təbii şəraiti üçün səciyyəvi deyil. Çünki Qərbi Azərbaycanın iqlimi subtropik və mülayim iqlim qurşaqları daxilində Aralıq dənizi iqliminə xas olmaqla subekvatorial və tropik iqlim şəraitindən kəskin surətdə fərqlənir. Ona görə də, prothayların xələfləri olan indiki haylar məhz Afrika iğlimi şəraitinə uyğun bioloji və morfoloji əlamətləri ilə Cənubi Qafqazın aborigen xalqlarından (xüsusilə müsəlman-türk qövmündən) açıq-aydın seçilirlər. Məhz bu göstəricilərinə görə prothay ibtidai insan sürülərinin Afrika qitəsi daxilində yerdəyişmələrinə, iqlim və təbii şərait xüsusiyyətlərinin təsirlərinə məruz qalmaları mərhələlərinə diqqət yetirmək vacibdir. (Bir maraqlı cəhət isə hay sürüsünün gen daşıyıcıları tərkibində Yunan-Roma etnik-irqi xromosomlarının mövcudluğunda nəzərə çarpır, lakin təbii ki, bu başqa yazının mövzusudur).

Bu baxımdan subekvatorial iqlim şəraitindən (Həbəşistan dağlıq yaylasında) sonra tropik iqlim qurşağında, yəni Nil çayı və Qırmızı dəniz sahillərinin, Nubiya səhrasının, Etbay dağlıq sahəsinin kəskin temperatur-rütubət dəyişkənliyi, təbii şəraitin relyef-iqlim təzadlığı ilə fərqlənən ərazilərə köç edən tiqran-tiqrau sürüsünün (e.ə. II-I minilliklərdə) şüurunda təbii amillərin təsiri ilə bir sıra fizioloji-bioloji özəlliklər (inadkarlıq və riyakarlıq, qəbilələrarası münaqişə və qəddarlıq, ətraf mühitə və qonşulara qarşı dözümsüzlük, güclülərə satqınlıq, zəiflərə qoluzorluluq...) həyat-davranış tərzi kimi aşılanması təbii qəbul edilməlidir. Bundan başqa, qonşu tayfalarla uzunmüddətli düşmənçilik, tayfalararası natural məhsul mübadiləsinə güc yolu ilə müdaxilə, hakim-güclü qüvvələrin tərəfini saxlamaq və onlara yarınmaq, onlara təbəəlik və sadiqlik nümayiş etdirmək... kimi xüsusiyyətlər də genetik olaraq bu etno-morfo-biloji strukturda əxz edilib. Təbii şəraitin dözümsüzlüyü protohaylar da uzun sürən qəbilələrarası vuruşlarda birləşməyi təlqin edib (instinkt yolu ilə) və vahid, güclü qüvvə halında çıxış etmələrinə səbəb olub. Bu kimi amillər məhz Nil çayı hövzəsindəki yerli tayafalarla münasibətlərində də protaylarda daha çox nəzərə çarpıb. Çünki Nubiya səhrasının təbiəti, ağır iqlim-relyef şəraiti hay sürsünün kollektiv formlaşmasına, birgə yaşamhərəkət etmələrinə səbəb olub.

Hazırda bütün Yaxın və Orta Şərq-Ərəb ölkələrində hay icmalarının məskunlaşması (BƏƏ, Qətər, Səudiyyə Ərəbistanı...) və uzun əsrlər boyu yaşaması, kəskin iqlim şəraitinə dözməsi və uyğunlaşması (hay kilsə tərəfindən zorən məcbur olunsa da) Qırmızı dəniz sahillərində, Nubiya səhrasında qızmar səhra şəraitində yaşamış protohay sürülərinin gen daşıyıcılarının təzahürüdür, nişanələridir. Bu amildən sonrakı mərhələdə hay kilsəsi hay sürüsünün idarə edilməsində, başqa istiqamətlərdə yararlanmaqda uzağgörənliklə və bacarıqla istifadə edib. Təsadüfi deyil ki, baş hay keşişləri həmişə milli lider rolunda çıxış edib, çünki ibtidai insan sürüsü halında hay qəbilə-tayfa icmasının varlığı və həyat tərzi e.ə. I minillikdə kortəbii halda olsa da, eramızın V əsrindən sonra məhz hay kilsə hökmünə tabe olub. Əvvəlcə pərakəndə halda Şərqi Afrikada, Nil çayı hövzəsində, Qırmızı dəniz sahillərində, Aralıq dənizi ada və yarımadalarında səpələnən bu protohay (hay) sürüsünün başını bir yerə "bağlayan" məhz hay kilsəsidir.

Bir vacib cəhəti qeyd edək ki, Afrikanın şimal-şərqində protohay sürüsü yerli qəbilətayfa üzvlərinin fərdi-ictimai təsərrüfat fəaliyyətinə yiyələnərək onlara qarşı davamlı mübarizə aparmaqla Misir fironlarının və Həbəş xristian hakimlərinin etibarını qazana bilib. Nəticədə eramızdan əvvəl I minillikdə Nil çayı və Qırmızı dəniz sahillərində Roma-Yunan koloniyaları yarananda hay sürüsündən intensiv şəkildə muzdlu işçi qüvvəsi və döyüşçü dəstələri kimi istifadə olunub. Sonrakı mərhələlərdə onlar həm də Dəclə və Fərat çaylarının yuxarı axarlarında, Aralıq dənizinin şərq sahillərində, Yunanıstanın ada və yarımadalarındakı kolonlarda muzdlu dəstələr halında məskunlaşıblar. Yunan və Bizans imperiyaları dövründə isə haylardan ibarət xüsusi döyüşçü dəstələri ayrıca olaraq İran, Ərəb və Misir ordularına qarşı döyüşüb.

Nil çayı hövzəsində (deltasında) ən böyük yunan koloniyalarından biri Navkratis hesab olunur. Burada yerli və gətirilmə muzdlulardan (Həbəşistandan, Nubiyadan gətirilmiş) daha çox istifadə edilib. Bu barədə həmin yerlərə səyahət etmiş yunan səyyahlarının, siyasi xadimlərinin (Fales, Anaksimandr, Demokrit, Solon...) əsərlərində qiymətli məlumatlar verilir. Ən mükəmməl bilgilər isə Herodotun "Tarix" kitabının II hissəsində və Strabonun "Coğrafiya" (XVII kitab, I, II fəsil) əsərində verilir. Tarixi mənbələrdən məlumdur ki, ermənilərin Troya müharibəsində iştirakı barədə yunan yazılı tarixi-ədəbi mənbələrində (Homerin "İliada" və "Odisseya" poemalarında) bilgilər verilir. Onlar özləri də bu məlumatlardan qürur duyurlar, baxmayaraq ki, həmin müharibədə muzdlu döyüşçü dəstələrinin tərkibinə Ərəbistan səhrasının (Qırmızı dənizin cənub-qərb hissəsindən) təbii mağaralarından, daşlı, qayalı-sıldırımlı ərazilərdən tutulub daxil edilmiş hay sürüləri Troya adasına qul kimi aparılıb, əsir düşənlər içərisində də haylar üstünlük təşkil edib. Bu barədə Strabonun "Coğrafiya" kitabında (kitab XVII, fəsil I, 34-cü bölümdə) məlumat verilib.



Eramızdan əvvəl II minilliyin sonunda Nubiyada Napat çarlığına üz tutan protohaylar I minilliyin əvvəllərində Misir fironu I Tutmosun tərəfinə keçərək Nubiya çarlığının məğlubiyyəti üçün imkanlarını, qüvvələrini əsirgəməyiblər. Daha sonra Misir firionu II Psammetixin hakimiyyəti illərində hay qəbilə-tayfası assuriyalılarla birləşərək e.ə. VI əsrdə Nubiya çarlığına sarsıdıcı zərbə vurub, nəticədə bu çarlıq e.ə. IV əsrdə süquta uğrayıb. Daha sonra, II Ramzesin hakimiyyəti illərində (e.ə. 1304-1237-ci illər) Nubiya səhrasında ucaldılan iki məbədin və həyat yoldaşı Nefertarinin şərəfinə on metrlik məqbərənin tikintisində də hay sürüsündən qul əməyi kimi istifadə edilib.

Siyasi-hərbi və ictimai-sosial şəraitin dəyişikliyi sonrakı mərhələlərdə hay qəbilə-tayfa üzvlərinin daha cox sənətkarlıq (qızıl məmulatlarının işlənilməsi, fil sümüyündən istifadə sahəsində) və ticarət sahəsində fəaliyyətləri nəzərə çarpır.

Həmin minilliklərin ictimaisiyasi və hərbi sisteminin tələbləri baxımından onların Yunan-Misir koloniyalarında yerləşmələri ilk növbədə bu xüsisiyyətləri nəzərə alınmaqla (əsasən e.ə. II-I minilliklərdə) gələnəkli hala çevrilib. Bu barədə antik dövrün Roma, Yunan və Ərəb mütəfəkkirlərinin əsərlərində, Avropa kilsə-din mərkəzlərinin saxlanc nümunələrində Afrika qitəsinin e.ə. II-I minilliklərində ibtidai insan sürülərinin, qəbilə-tayfa toplumunun qitədaxili və qitədənkənar miqrasiyası barədə kifayət qədər yazılı məlumatın olması barədə əvvəlki yazılarımızda bildirilib. Bu miqrasiya prosesinə e.ə. I minillikdə (VII əsr, XXVI firon sülaləsi dövründə) yunan koloniyalarının Nil çayı hövzəsində yerləşdirilməsi, ticarətin genişlənməsi və muzdlu qüvvələrə ehtiyacın artması ilə yanaşı, ekstremal təbii amillərin təsiri də böyük olub. Bu haqda qeyd edilən ərazilərə (Navrkratis koloniyasına) səyahət etmiş yunan filosofları və siyasilərindən olan Miletli Fales (e.ə. 624-546-cı illər; "Dəniz astrologiyası", "Başlanğıc barədə", "Günəş durumu"...əsərləri), Anaksimandr (e.ə. 611-546-cı illər; Yer kürəsinin ilk xəritəsini tərtib edib), Abderli Demokrit (e.ə. 460-370-ci illər; "Böyük dünya qurluşu" əsəri) ... əsərlərində məlumat verir.

Afrika qitəsi daxilinə qədim Misir və Həbəş əraziləri barədə Herodotun əsərlərində ("Tarix", II kitab) verilmiş ətraflı tarixi-coğrafi bilgilər yerli mənbələrlə oxşarlıq təşkil edir. Belə ki, Herodot Nil çayı hövzəsinin təbii şəraitini, yerli qəbilə-tayfa birliklərinin, insan sürülərinin adəti, məşğuliyyəti, həyat tərzi ilə bağlı məlumat verməklə yanaşı, qədim misirlilərin təqvim tərtib etməsi, ilin fəsillərinin və aylarının bölünməsi ilə əlaqədar mistikelmi təsəvvürlərinin ilkin qaynaqlarını da göstərir. İbtidai protohay sürüsünün varisləri olan indiki hayların iddia etdiyi "qədim təqvim, əkinçilik mərhələlərinə yiyələnmə" fərziyyələrinin qidalanma mənbəyi məhz Afrika kökənliyi ilə bağlıdır. Herodot həm də göstərir ki, qədim Afrika mədəniyyəti Yunan mədəniyyətinin təşəkkülünə və inkişafına böyük təsir göstərib. Bu mülahizəyə Hekatey (e.ə. IV-III əsrlər) də əsərlərində istinad etdir.

Hayların özlərini dünyanın ən qədim xalqlarından hesab etmələri, qədim sivilizasiyaya mənsub olmaları iddialarının kökündə onların qədim Həbəş, Misir və Yunan koloniyalarında muzdlu protohay sürülərinin şəcərə davamçıları kimi mistik düşüncələrinin nəticəsidir.

Şərqi Afrika dağlıq yaylasından köç edən bu ibtidai insan sürüləri içərisində protohayların assimilyasiya olunduğu tiqran, tiqrau və tiqr tayfalarının etno-morfo-psixoloji xüsusiyyətlərinə Nil çayı hövzəsinin və Qırmızı dənizin qərb sahillərinin təbii şəraitinin təsiri və bu sürünün formalaşmasının təbii şəraitdən asılılığı da əski xronoloji və mistik yazılı mənbələrin təhlili ilə aydınlaşdırılır. Nəticə müasir hay toplumunun şüurunda, psixiloji davramında və dünyaduyumu-dünyadərki anlamında ilkin təbii amillərin qorunub saxlanmasının, gen daşıyıcılarının dəyişilməzliyində təbii-coğrafi şəraitin təhlil edilməsi ilə üzvü surətdə bağlıdır. Belə ki, şərqi və şimal-şərqi Afrikanın mürəkkəb iqlim-relyef şəraitinin ibtidai protohay sürüsünün etno-morfo ilkinliyində oynadığı rol müasir hay toplumunun, qəbilə-tayfa birliyinin psixiloji-mənəvi durumunun dəyişilməzliyinə də təsir edir. Hay sürüsünün hərəkət etdiyi miqrasiya xətti üzrə iqlim və relyef özəllikləri (ayrıayrı dövlətlərin ərazisində) fərqli olsa da, aradan keçən 4 minillik dövrdə onlarda etnopsixiloji ilkinliyin (barbarlıq, vəhşilik, riyakarlıq, xəyanətkarlıq, qəfuluq, barışmazlıq, insan qanına hərislik, acgözlük, ələbaxımlılıq, qeyri-səmimilik, yaltaqlıq, insani keyfiyyətlərdən uzaqlılıq...) qorunub saxlanması və "milli" xüsusiyyət kimi formalaşması dəyişilməz qalıb və davam etməkdədir. Protohay sürüsünün etno-morfo və psixi genezisinin dəyişilməzliyi, bu gen daşıyıcılığının ilkinliyinin saxlanması əsasən iki amillə bağlıdır:

- təbəddülatlı təbii coğrafi şəraitin uzun minilliklər ərzində təsiri;
- protohay sürüsünün birliyinin qorunmasında hay kilsəsinin yürütdüyü siyasətin güclü olması.

Təbii ki, indiki ibtidai hay sürüsünün şüurunun sivil bəşəri amillərdən uzaq qalmasının ilkin səbəbləri sırasında bu cəhətlər nəzərə alınmalıdır.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# Azərbaycan MDB-də Rusiyadan sonra investisiya yatırmalı ikinci ən yaxşı ölkə kimi - qiyməti ABŞ nəşri verdi

**Məlum olduğu kimi, ABŞ-ın məşhur "Ceoworld" nəşri bu il investisiya yatırmaq üçün ən yaxşı ölkələri açıqlayıb. Reytinq cədvəli hazırlanarkən 67 ölkə korrupsiyanın səviyyəsi, şəxsi, ticarət və pul azadlığı, əmək, investorların qorunması, infrastruktur, vergilər, həyat keyfiyyəti, bürokratiya və texnologiya kimi 11 fərqli kateqoriyada qiymətləndirilib.**



***Vüqar Bayramov:** "Ölkəmizlə bağlı açıqlanan müsbət rəylər beynəlxalq ictimaiyyətin diqqətindən yayınmır və bu, ölkəmizin imicinin yüksəlməsinə xidmət edir"*

Siyahıya liderliyi Malayziya, Polşa və Filippin edir. Dünyanın ən böyük iqtisadiyyatlarına malik ölkələr: ABŞ, Çin və Yaponiya isə siyahıda müvafiq olaraq 18-ci, 24-cü və 32-ci yerlərdə qərarlaşıblar.

Azərbaycan isə 43-cü yeri tutub və Rusiya istisna olmaqla, postsovet məkanında bütün ölkələri qabaqlayıb.

Qeyd edək ki, Azərbaycanın investisiya yatırmaq üçün sərfəli ölkə olması barəsində dəfələrlə xarici nəşrlərdə, beynəlxalq hesabatlarda məlumatlar yayılıb.

İqtisadçı Vüqar Bayramov bildirdi ki, postsovet məkanında investisiya yatırmaq üzrə Azərbaycanın yaxşı ölkələr siyahısında yer alması gözlənilən idi: "Azərbaycanın investisiya cəlbediciliyinin artmasının əsas səbəbi ölkədə aparılan islahatların dərinləşdirilməsidir. Məlumdur ki, 2015-ci ildən başlayaraq islahatlar aparıldı və görülən işlər beynəlxalq təşkilatlarda, iqtisadi institutlarda Azərbaycanla bağlı müsbət rəylərin çoxalmasına səbəb oldu".

Həmsöhbətimizin sözlərinə görə, ölkəmizlə bağlı açıqlanan müsbət rəylər beynəlxalq ictimaiyyətin diqqətindən yayınmır və bu, ölkəmizin imicinin yüksəlməsinə xidmət edir: "Artıq beynəlxalq aləmdə ölkəmizdə aparılan islahatların növbəti illərdə davam etdiriləcəyinə və iqtisadi artımın güclənəcəyinə dair inam formalaşıb. Azərbaycan iqtisadiyyatında islahatların dərinləşməsi aydın görünür. Danılmaz faktdır ki, son bir ildə islahatlar keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Bu, investisiya mühitinin daha da yaxşılaşdırılması, xüsusən də iş adamları üçün yeni imkanların, o cümlədən, güzəştli kreditlərə çıxış imkanlarının artırılması, eyni zamanda, idarəetmə sistemində çevikliyin artırılması ilə bağlı struktur islahatların genişləndirilməsi deməkdir".

*"...növbəti illərdə daha sürətli iqtisadi artımın əldə edilməsi üçün baza formalaşdırır"*

V.Bayramov bildirdi ki, Azərbaycan 2019-cu ildə yüksək iqtisadi artım sürətini yenidən bərpa edib.

Ekspertin fikrincə, müsbət dəyişikliklər ölkəmizə sərmayə qoymaq istəyənlər üçün yaxşı siqnaldır: "2019-cu, 2020-ci və 2021-ci illər üçün beynəlxalq maliyyə qurumlarının proqnozları göstərir ki, Azərbaycan 3 faizə yaxın, hətta bir qədər də çox iqtisadi artıma nail ola biləcək. Bu, iqtisadi artım tempinin yüksəlməsi deməkdir. Son bir ildə aparılan islahatlar növbəti illər Azərbaycan üçün iqtisadi inkişaf baxımından yeni imkanlar yaradır. Artıq Azərbaycan iqtisadi islahatların aparılması baxımından yeni mərhələyə qədəm qoyub. Bu keyfiyyət mərhələsi əvvəlki dövrlərdə formalaşmış infrastrukturun dəyərə çevrilməsi mərhələsidir.

**Ötən bir ildə aparılan islahatlar növbəti illərdə daha sürətli iqtisadi artımın əldə edilməsi üçün baza formalaşdırır. Belə vəziyyətdə xarici sərmayədarların Azərbaycana investisiya qoyuluşunda marağının artacağı gözlənir. Xüsusən qeyri-neft sektoruna sərmayə qoyuluşunda xarici mənbələrin rolunun yüksəlməsi gözlənəbilər".**

***Günel CƏLİLOVA***

# Azərbaycan brendli məhsullar bu il 25 beynəlxalq sərgidə təmsil olunub

**Qeyri-neft sektorunun inkişafına yönələn iqtisadi strategiya getdikcə özünü daha dərindən büruzə verir. Artıq dünya bazarlarında "Azərbaycan brendi" dəyərli markalardan sayılır. İndi təbii karbohidrogen ehtiyatları ilə yanaşı, becərilən kənd təsərrüfatı məhsullarımız xarici bazarlarda tanınır.**




***Fikrət Yusifov:** "...əsas strategiyalardan biri yerli istehsalın xarici ölkələrdə tanıdılmasıdır"*

Dövlətin sahibkarlığın inkişafına qayğısı, ixracyönümlü məhsulların istehsalına hərtərəfli yardım və xaricdə təşviq edilməsi ölkəmizin xarici ticarətinin əsas atributuna çevrilib.

Məlumdur ki, Azərbaycan brendi adı altında istehsal olunan məhsullar neçə ildir beynəlxalq sərgilərdə nümayiş olunur. Qeyd edək ki, bu ilin əvvəlindən Azərbaycan məhsulları xarici ölkələrdə keçirilən 8 beynəlxalq sərgidə nümayiş olunub. Belə ki, Azərbaycan şirkətləri Berlində "Beynəlxalq Yaşıl Həftə 2019", "Fruit Logistica 2019", "Prowein 2019", Moskvada "Prodexpo 2019", "Mosbuild 2019", "Worldfood Moscow 2019", Birləşmiş Ərəb Əmirliklərində "Gulfood 2019" və Çində təşkil edilmiş "Sial China 2019" beynəlxalq sərgilərində "Made in Azerbaijan" vahid ölkə stendi ilə iştirak ediblər. Azərbaycan məhsulları indiyədək 25 beynəlxalq sərgidə vahid ölkə stendi ilə təqdim edilib. Həyata keçirilən tədbirlərin davamı olaraq Azərbaycan məhsulları bu ilin sonunadək Almaniyada "Anuga 2019" və Çində təşkil olunacaq "Food and Hotel China" beynəlxalq sərgilərində nümayiş olunacaq.

Cari il ərzində 25 beynəlxalq sərgidə "Made in Azerbaijan" brendi adı altında Azərbaycan məhsulları nümayiş olunub.

Beynəlxalq sərgilərdə Azərbaycan məhsullarının sərgilənməsinin əhəmiyyəti barəsində danışan iqtisadçı-ekspert Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı çox ciddi qərarlar qəbul olunub. Bununla yanaşı, qeyri-neft sektoru məhsullarının ixracının həcminin genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir: "Xarici ölkələrdə təşkil olunan sərgilərdə "Made in Azerbaijan" brendi ilə qeyri-neft sektoru məhsulları nümayiş olunur. Azərbaycan məhsullarının dünya bazarında yer tutması üçün dövlət tərəfindən çox ciddi qərarlar qəbul olunur. Bunun nəticəsidir ki, tək bu il ərzində 25 beynəlxalq sərgidə Azərbaycan məhsulları nümayiş olunub. Beləliklə, əcnəbilər Azərbaycan məhsulları ilə tanış olublar".

*"Beynəlxalq sərgilərdə Azərbaycan məhsullarının nümayiş olunması ölkəyə daha çox valyuta daxil olmasına səbəb olur"*

İqtisadçının fikrincə, qarşıdakı dövr ərzində Azərbaycan məhsulları daha çox ölkədə nümayiş olunacaq: "Hazırda qarşıya qoyulan əsas məqsədlərdən biri istehsal olunan məhsulların daha çox ölkədə nümayiş etdirilməsidir. Beynəlxalq sərgilərdə Azərbaycan məhsullarının nümayiş olunması ölkəyə daha çox valyuta daxil olmasına səbəb olur. Bəllidir ki, ölkəyə daha çox valyuta daxil olması üçün müəyyən olunan əsas strategiyalardan biri yerli istehsalın xarici ölkələrdə tanıdılmasıdır".

***Günel CƏLİLOVA***

# Azərbaycan xalqının 33 milyondan çox müraciəti ASAN şəkildə həll olunub

**Azərbaycanda "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması vətəndaşların həyatına müsbət təsir göstərməyə başlayıb. Vətəndaşlar "ASAN xidmət"in göstərdiyi yüksək xidmətin faydasını hər gün öz həyatlarında yaxından hiss edirlər. Onu da qeyd edək ki, bu xidmətə müraciət edənlərin sırası günü-gündən genişlənir.**




## *Ruslan Atakişiyev: "ASAN xidmət" artıq dövlətin və xalqın etimadını doğruldub"*

Rəsmi məlumatlara görə, "ASAN xidmət"ə müraciət edənlərin sayı 33 milyona çatıb. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən mətbuata verilən məlumata görə, 33 milyonuncu müraciət 2 saylı Bakı "ASAN xidmət" mərkəzinə Rəşad Abdullayev tərəfindən edilib. O, Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən notariat xidmətindən yararlanıb.

Qeyd edək ki, hazırda 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir. Bundan başqa, regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlər göstərilir.

Həmçinin, Bakı şəhərində əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 "ASAN Kommunal" mərkəzi fəaliyyətdədir.

"ASAN xidmət"ə müraciət edənlərin sayının 33 milyona çatmasının əhəmiyyətini şərh edən iqtisadçı-ekspert Ruslan Atakişiyev "Bakı-Xəbər"ə bildirdi ki, "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladıqdan sonra vətəndaşlar daha çox bu xidmət qurumuna müraciət edirlər. O hesab edir ki, "ASAN xidmət" mərkəzlərində yaradılan şərait vətəndaşlar üçün bütün xidmətləri əlçatan edib, bu səbəbdən də hazırda bu quruma müraciət edənlərin sayı 33 milyona çatıb. Uzun müddət bəzi dövlət qurumlarında süründürməçiliklə, bürokratiya ilə üzləşən vətəndaşların bu gün "ASAN xidmət" mərkəzlərində bunları görməməsi, bütün problemlərini eyni yerdə həll etməsi əhalinin bu xidmətdən yararlanmağa marağını artırıb. "Bilirsiniz ki, Azərbaycanda bir neçə ildir fəaliyyət göstərən "ASAN xidmət" mərkəzləri insanların həyatına yaxından daxil olub. Uzun illər dövlət qurumlarında bürokratiya, süründürməçilik, get-gəllə üzləşən vətəndaşlar bu gün "ASAN xidmət" mərkəzlərində bu hallarla qarşılaşmırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ideyası əsasında təsis

> *"...bütün problemlərini eyni yerdə həll etməsi əhalinin bu xidmətdən yararlanmağa marağını artırıb"*

edilən "ASAN xidmət"in yaradılmasında məqsəd vətəndaş məmnunluğunu təmin etmək, onların müxtəlif məsələlərlə bağlı sənədləşdirmə problemlərini asanlıqla yoluna qoymaqdır. Artıq "ASAN xidmət" özünü doğruldub. Burada vətəndaşları cəlb edən ən mühüm məsələlərdən biri onunla bağlıdır ki, vətəndaş ona aid olan sənədləşdirmə işlərini eyni binada həyata keçirir. Bir mərtəbədə həm notariat, həm bank, həm də digər xidmət sahələri fəaliyyət göstərir və vətəndaş vaxt itkisinə yol vermədən bütün sənədləşmə işini həll edə bilir. Onu da deyim ki, "ASAN xidmət" sistemində vətəndaşlara xidmət göstərən xidmət sahələrində şəffaflıq tam təmin olunub. Vətəndaşdan rüşvət, "şirinlik" tələb olunmur, aldıqları sənədlərə dövlət tərəfindən müəyyən edilmiş məbləğdə vəsait ödəyirlər. Bu da onlar üçün sərfəlidir. Bilirsiniz ki, "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladıqdan sonra vətəndaşlar sənədləşmə işləri üçün başqa orqanlara çox nadir hallarda müraciət edirlər. Bu da o deməkdir ki, əhalinin 80-85 faizi yalnız "ASAN xidmət"in xidmətindən yararlanır".

R.Atakişiyev, həmçinin, vurğuladı ki, "ASAN xidmət" mərkəzlərində həyata keçirilən işlər vətəndaşları tam olaraq təmin edir. "Vətəndaşlar razı qalmasalar, heç bir vaxt "ASAN xidmət"ə müraciət etməzlər. Demək, "ASAN xidmət" artıq dövlətin və xalqın etimadını doğruldub, elə bunun nəticəsdir ki, bu qurumda 33 milyonuncu vətəndaş müraciəti qeydə alınıb. Hesab edirəm ki, tez bir zamanda bu rəqəm daha da artacaq. "ASAN xidmət" mərkəzlərinə vətəndaşlarımızla yanaşı, əcnəbi vətəndaşlar da müraciət edirlər və onların da sənədləşmə ilə bağlı problemləri maneəsiz olaraq burada öz həllini tapır. Deyim ki, "ASAN xidmət" təsisatı xarici ölkə vətəndaşlarının da diqqətini cəlb edir və məmnunluqlarını təmin edir" - deyə R.Atakişiyev bildirdi.

***İradə SARIYEVA***

# İstehlakçının tələb etdiyi hər şeyə görə kredit verilməməlidir...

**"İstehlak kreditləri haqqında" qanun layihəsinin hazırlanması təklif olunur. Belə bir təklifi Milli Məclisin ötən plenar iclasında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli səsləndirib. O qeyd edib ki, sözügedən sənədi banklar hazırlasa, öz maraqlarından çıxış edəcəklər:**



## *Fuad İbrahimli: "...bir çox xarici ölkədə istehlak kreditləri verən ayrıca banklar var"*

"Təklif edirəm ki, ya ayrıca qanun layihəsi hazırlansın, ya da Mülki Məcəlləyə ayrıca bənd əlavə olunsun".

Bununla yanaşı, istehlak kreditlərini verən ayrıca bankların yaradılması da təklif olunur. Qeyd edək ki, bu gün bankların əksəriyyəti istehlak kreditləri verir. Banklar real və biznes sektoruna kredit ayırmağa maraqlı olmasa da, istehlak kreditlərinə daha çox maraq göstərirlər.

İqtisadçı-ekspert Fuad İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ölkəmizdə "İstehlak kreditləri haqqında" qanun layihəsinin hazırlanmasına ehtiyac var: "Elə qaydalar olmalıdır ki, verilən kreditlər istehlaka deyil, daha çox istehsala yönəldilsin. Bir az iqtisadi canlanma olan kimi bizim banklar istehlak sektoruna yönəlirlər. Bu, iqtisadiyyat üçün o qədər də normal hal deyil. Xüsusilə də inkişaf etməkdə olan ölkə üçün istehlakı yox, istehsalı kreditləşdirmək lazımdır. Bununla bağlı ayrıca qanun olmalıdır və istehlaka yönəldilən kreditlər məhdudlaşdırılmalı, kifayət qədər yüksək tələblər qoyulmalıdır".

Ekspert hesab edir ki, əhaliyə verilən istehlak kreditləri üçün tələblər ciddi olmalıdır: "Danılmaz faktdır ki, bu gün banklar telefon, maşın, mebel, səyahət və digər nəsə əldə edilməsi üçün vətəndaşlara kredit verirlər. Ümumiyyətlə, istehlakçının tələb etdiyi hər şeyə görə kredit verilməməlidir. Bu işlə ayrıca bank məşğul olmalıdır.

> *"Bu gün istehlak kreditinin ödənilməsi mexanizmində kifayət qədər boşluq var"*

Məlumat üçün bildirim ki, bir çox xarici ölkədə istehlak kreditləri verən ayrıca banklar var. Bununla yanaşı, investisiya bankları da mövcuddur. Bu cür bankların fəaliyyəti qanunla tənzimlənir. İstehlak kreditləri verən bankların fəaliyyəti də "İstehlak kreditləri haqqında" qanunla tənzimlənə bilər".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, Azərbaycanda ixtisaslaşmış banklar olmasa belə, yenə "İstehlak kreditləri haqqında" qanunun qəbul olunmasına ehtiyac var: "Bəllidir ki, bu gün istehlak kreditinin ödənilməsi mexanizmində də kifayət qədər boşluq var. Elektron bankçılıq inkişaf etdiyi bir dönəmdə vətəndaşlar kredit ödənişini nağd şəkildə həll edir".**

***Günel CƏLİLOVA***

**Telefonuma tanımadığım bir nömrədən zəng gəldi. Xəttin o biri başında illərin ağırlığı çökmüş yorğun səsli bir qadın özünü belə təqdim etdi: "Mən şəhid Zamin Məmmədovun anasıyam. Oktyabrın 5-i onun doğum günüdür. Yad etsəniz, sevinərəm",- dedi.**

# Bir amalın iki qəhrəmanı - Zamin Məmmədov və ANA...

Ertəsi gün Zaminin dünyaya göz açdığı kəndə - Babək rayonunun Nehrəm kəndinə üz tutdum. Nərgiz ana elə qapıda gözləyirdi. Övladının həsrəti bəyaz qar kimi saçlarına hopmuş, ürəyində düşmənə nifrəti, gözlərində qələbəyə ümid qığılcımı gəzdirən, bu torpağa, bu elə qəhrəman yetişdirən ana ilə görüşmək, onunla həmsöhbət olmaq həm çətin, həm də şərəfli idi mənim üçün. Azərbaycan qadınının bütün keyfiyyətlərini özündə əxz etmiş Nərgiz ananın söhbətini dinlədikcə gözümdə bir tablo canlanırdı: Vətənpərvər, vətənpərvər olduğu qədər məğrur, məğrur olduğu qədər də cəsarət sahibi olan bir qəhrəman ana. Ali təhsillidir. Sovet dövründə kolxozda briqadir olub. Fəaliyyət göstərdiyi müddətdə "Qırmızı Əmək Bayrağı" ordeni alıb, yaxşı işinə görə dəfələrlə fəxri fərmanlara layiq görülüb. Ailə qurduqdan sonra əmək fəaliyyəti sonlanıb. Digər missiyasını - analıq missiyasını layiqincə yerinə yetirib. 4 övlad böyüdüb. 4-ü də ali təhsilli, cəmiyyətimizə yararlı. Zamin 3-cü övladıdır. Nərgiz ana övladının şəkillərini göstərir, haqqında qürurla danışır. Danışdıqca fərəhlənir, gözlərinə işıq gəlir. Düşünürəm ki, nəinki şəhidləri, şəhidlik zirvəsinə yüksəlmiş oğul yetişdirən anaları da unutmaq olmaz. Onların ziyarətinə getmək, həmsöhbət olmaq bizim ən azından vətəndaşlıq borcumuzdur. Nərgiz ana danışdıqca artıq hazırlayacağım yazının baş qəhrəmanını deyil, baş qəhrəmanlarını müəyyənləşdirmişdim. Bunlardan biri şəhid Zamin Məmmədov, digəri qəhrəmanı yetişdirən Nərgiz ana idi.

"Ailə qurmağa tələsmirdi. Atası Allahverdi kişinin və mənim təkidimdən sonra qohumlardan birinin qızı ilə nişanladıq. Toy hazırlıqlarına başladıq. Otağını bəzədik. İndi bu otaq onun xatirəsilə dolub". Divardan asılan üçrəngli bayrağımız, Zaminin hərbi forması, şəkilləri... Sanki bir muzeydir, vətənpərvərlik muzeyi. Nərgiz ana bu otağı elə muzey kimi də qoruyur. "Hər gün işdən gəlib ilk bu otağa keçirəm. Anabala söhbət edirik", -deyir Nərgiz ana.

Qəhrəman doğulurlar, qəhrəman olmurlar!

Kim idi Zamin Məmmədov? Zamin Məmmədov 1985-ci il oktyabrın 5-də Nehrəm kəndində zəhmətkeş bir ailədə dünyaya göz açıb. Bu kənddən başlayıb Vətən sevgisi. Əvvəl Nehrəmi, Naxçıvanı, sonra bütünlüklə Azərbaycanı sarıb. Nehrəm əsasən muxtar respublikanın daha çox ziyalılar yetirmiş yaşayış məskəni kimi tanınır. Anasının arzusu da Nehrəm kənd 2 nömrəli orta məktəbdə dərslərini əla qiymətlərlə oxuyan Zamini həkim görmək idi. Lakin o, qəhrəman doğulmuşdu. Onun missiyasi daha ali idi. Bu missiyanın ilk işartıları da elə uşaq yaşlarından görünürdü. Əlinə keçən alüminium məftilləri əyib gah tank, gah da avtomat düzəldirdi. Nərgiz ana: "O artıq öz yolunu seçmişdi. Bunun qarşısını almaq günah olardı. İnsan yalnız sevib seçdiyi sahədə müvəffəqiyyət qazanar. Ona görə də oğlumun seçiminə hörmətlə yanaşdıq". Orta məktəbdə oxuyarkən artıq Sovet İttifaqı dağılmış, Azərbaycan şəhidlərin qanı bahasına əldə etdiyi müstəqilliyini qorumaq uğrunda mübarizə aparırdı. Vətənpərvərlər bu mübarizənin ön cərgələrinə qoşulurdular. Bu ərəfədə ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1998-ci ildə Naxçıvanda ilk hərbi təhsil ocağı - Cəmşid Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialı yaradılır. Böyük qardaşı Zaur Məmmədov bu liseyin ilk məzunlarından olur. 2000-ci ildə Zamin Məmmədov da Hərbi liseyin kursantı olmaq şərəfinə nail olur. Artıq o, məqsədinin astanasında idi...





Liseyi bitirdikdən sonra məqsədinin ardınca Bakıya üz tutan Zamin Məmmədov Heydər Əliyev adına Ali Hərbi məktəbi də uğurla başa vurur. Leytenant rütbəsi ilə ordu sıralarında xidmətə başlayan Zamin Məmmədov öz istəyi ilə Ağdama - cəbhə bölgəsinə göndərilir. Mənfur ermənilərin atəşkəsi tez-tez pozduğu bu bölgədə onun üzərinə daha artıq məsuliyyət düşürdü. Tağım komandiri kimi əsgərləri yetişdirmək, qayğısına qalmaq, eləcə də ayıq-sayıq Vətənin keşiyində dayanmaq.

### Vətəni qorumaq peşəsini seçən oğullara eşq olsun!

14 yaşında, hələ yeniyetmə ikən ailədən ayrılmaq, ata qayğısı, ana nəvazişindən kənar qalmaq hər oğulun işi deyil. Və bilərəkdən ki, bu yolun dönüşü olmaya bilər. Zamin 2008-ci ildə ayağından güllə yarası alsa da, tezliklə ayağa qalxıb yenidən səngərə qayıdır. Bu yoldan onu ölüm qorxusu belə döndərə bilməzdi. Sevərək seçdiyi yolda inamla, qətiyyətlə addımlayan Zamin illər idi ki, ad gününü qeyd etmirdi. Evlərinə məzuniyyətə gələndə belə 10 gündən artıq qalmazdı. Bütün fikri, xəyalı qısa zamanda geriyə - xidmətinə dönmək idi. Sonuncu məzuniyyəti 2010-cu ilin oktyabrına təsadüf edir. Anasının xahişi ilə sinif və kursant yoldaşlarını ad gününə dəvət edir. Bu onun həyatında təmtəraqlı qeyd olunan ilk və sonuncu ad günü olur.

2011-ci il yanvarın 25-də Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdam rayonunun Cavahirli kəndi istiqamətində açdığı atəş nəticəsində Zamin Məmmədov şəhidlik məqamına qovuşur.

Yeni il ərəfəsində Azərbaycan televiziyasının əməkdaşları Zamin Məmmədovdan müsahibə alır və ona "Arzuların varmı", - sualını ünvanlayır.

"Tağım komandiri, leytenant Zamin Allahverdi oğlu Məmmədov",- deyə özünü təqdim edən vətənpərvərin cavabı belə olur: "Yeni ili işğaldan azad olunacaq torpaqlarda qeyd etmək". "Səngərdə zabit kimi xidmət etmək mənim ən böyük arzum idi. Torpaqlarımızın işğalı ilə barışa bilmərik. Tam silahlanmış, döyüş gücünə malik bir ordu olaraq Ali Baş Komandanın əmrini gözləyirik. Bu əmri layiqincə yerinə yetirəcəyimizə əminəm. Biz uduzmamışıq. Əsgər anaları rahat olsunlar, qürur hissi keçirsinlər ki, bizim övladımız səngərdə düşmənlə üz-üzə torpağımızı, millətimizi, xalqımızı qoruyur"-deyir Zamin Məmmədov.

### "O bayrağı öz əlimlə torpağa sancacağam..."

"Divara asılmış bayrağı görürsən, qızım? O bayrağa bükülüb gəlib şəhidim. Məzarı üstünə sancmaq istədilər, qoymadım. Tanrıdan nə var, nə dövlət, heç nə istəmirəm, ömür payı istəyirəm. Tanrı mənə ömür versin, torpaqlarımızın azad olunmasını görüm. O bayrağı öz əllərimlə Zaminin uğrunda şəhid olduğu Ağdam torpaqlarına sancacağam. Qocalıb əldən düşsəm də, sürünəsürünə də olsa, o torpaqlara gedəcəyəm"-deyir qəhrəman yetişdirən qəhrəman ana.

"Lələtəpə yüksəkliyinin alınması xəbərini eşidəndə işdən çıxıb qaçaqaçа evə gəldim. Bu şad xəbəri Zaminə yetirmək üçün. Saatlarla dayandım şəklinin qarşısında. Anabala söhbət etdik. Sanki mənə dünyaları vermişdilər. Oğlumun ruhu az da olsa, dinclik tapırdı axı. Həmin gün cəmi şəhidlərin ruhu şad idi. Bundan iki il sonra Günnüt zəfəri mənə qol-qanad verdi. Oğlumun itkisindən sonra hər iki zəfər müjdəsi mənim üçün əvəzedilməz pay idi. Elə gün olmaz ki, xəbərləri izləməyəm. Dövlətimizə, ordumuzun günü-gündən artan qüdrətinə, həyatını Azərbaycan Respublikasının müdaifəsinə həsr etmiş oğullara güvənirəm. Əminəm, əminəm ki, bu bayraq divarda qalmayacaq".

### Yüz-yüz itən olsun, min-min də bitən var

"Nəvəm Ramal Abbasov bu il Heydər Əliyev adına Hərbi Liseyə qəbul olundu. Çox sevindim. Özüm də liseyə getdim. Liseydə şəhid məzunların xatirəsinə həsr olunmuş lövhədə Zaminin də şəkli var. Əlindən tutub ora apardım. Bax, dayınla öyün dedim. Onun getdiyi yolun davamçısı ol. O yolu yarımçıq buraxmaq olmaz. O yol Vətən yoludur, namus yoludur. Bu yola girdinsə, geri dönüşü düşünmə. Geridə buraxdıqlarını düşün. Ananı düşün, atanı düşün, ailəni düşün. Bil ki, Vətən anadır. İrəli bax və cəsarətlə yürü. Biz haqq yolundayıq. Kimsənin torpağında gözümüz yox. Öz haqqımız uğrunda, Vətənimiz yolunda lazım gəlsə, hamımız əlbir olub savaşa gedəcəyik. Bu yolda yüzyüz itən olacaq, Zaminlər itəcək, Ramallar bitəcək. Bu eşq yoludur: Vətənə məhəbbət, dövlətçiliyə sədaqət yolu. İnamla irəli!"

Bir amalın iki qəhrəmanı - ana və oğul! Vətən aşiqi yetişdirmiş ana da qəhrəmandır. "Oktyabrın 5-i onun doğum günüdür. Yad etsəniz, sevinərəm",- demişdi Nərgiz ana. Biz heç onu unutmadıq ki! Şəhidlər ölmür, şəhidlər unudulmur. Şəhidlər elə bir mərtəbədədirlər ki, yoxluqları ilə belə illərə meydan oxuyurlar. Onlar uğrunda şəhid olduqları bu torpağa, bu elə, bu obaya adlarını öz qanları ilə yazıblar. Bu torpaq şəhid qanları ilə müqəddəsləşib.

Şəhid varsa, torpaq da var, Vətən də.

Şəhidlərə ölüm yoxdur Vətəndə!

***Ruhiyyə RƏSULOVA***
***Naxçıvan Televiziyasının baş redaktoru***

**Azərbaycanda internet məkanından azad istifadə bir sıra ciddi problemlərin yaranmasına səbəb olub. Xüsusən də uşaqların nəzarətsiz qaldıqları vaxtlar müxtəlif internet saytlarına daxil olması, burada özlərinə aid olmayan informasiyalarla tanış olması böyük təhlükədən xəbər verir.**

# Gələn ildən Azərbaycanda "halal internet"... "halal" nədir...

***Osman Gündüz:*** *"Valideyn "halal internet" istəyirsə, provayderlər gələn ildən bu xidməti təqdim etməyə borclu olacaq"*



Məlumdur ki, internetdə kifayət qədər zərərli informasiya var ki, onların uşaqlarımıza çatdırılması mənfi haldır. Əlbəttə, uşaqları, bütövlükdə, bu zərərli informasiya axınından qorumaq çətindir və deyərdik ki, mümkünsüzdür.

Uzun müddətdir ölkəmizdə təhlükəsiz internet məsələsi müzakirə olunur. Bəzi təkliflərə görə, internetə ciddi məhdudiyyətlər tətbiq edilməlidir. Artıq bu sahədə addımlar atılmaqdadır. Söhbət gələn ildən tətbiq ediləcək "halal internet" xidmətindən gedir.

Nədir "halal internet" xidməti? Onun tətbiqi bu sahədə nələri dəyişəcək?

Ekspertlər hesab edirlər ki, "halal internet" start götürdükdən sonra bu sahədəki mövcud problemlər minimuma enəcək.

Qeyd edək ki, 2020-ci il yanvarın 1-dən provayderlər "halal internet" adlandırılan filtrlənmiş internet xidməti göstərməyə başlayacaqlar. Burada televiziyaların da üzərinə böyük yük düşür. Telekanallar da təqdim etdikləri proqramlarda, verilişlərdə yaş məhdudiyyəti tətbiq etməlidirlər. Nəzərə alsaq ki, bu gün yerli telekanallarda verilişlər üzrə təsnifatlandırma həyata keçirilmir, lakin bu xidmət tətbiq edildikdən sonra, məcbiri qaydada da olsa, təsnifatlandırmalar aparılacaq.

Məsələyə münasibət bildirən "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün dediyinə görə, gələn ilin ilk günündən "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun qüvvəyə minir:

"Bu qanuna uyğun olaraq "Telekommunikasiya haqqında" Qanuna da əlavələr edilib. Onun sözlərinə görə, bu əlavəyə görə, hər bir provayder abunəçinin istəyilə uşağın internetdə zərərli informasiyadan qorunması üçün imkanlar yaratmalıdır. "Yəni bütün provayderlər təmiz, "halal internet" xidməti üçün hazırlıqlar görməlidir. Valideyn "halal internet" istəyirsə, provayderlər gələn ildən bu xidməti təqdim etməyə borclu olacaq. Təbii ki, bu məqsədlə provayderlər filtrasiya (süzgəc) sistemi qurmalıdırlar. Hazırda ölkənin təhsil sistemində bu tip süzgəc sistemi fəaliyyət göstərir. Bu qanunvericiliyə görə, gələn ildən televiziyalarda yayımlanan hər bir informasiya məhsulu yaş kateqoriyalarına görə (6-, 6+, 12+, 16+, 18+ ) işarələnməlidir. Hər işarəyə uyğun olan informasiya məhsullarının yayımlanmasına bəlli bir vaxt məhdudiyyətləri tətbiq olunacaq. Televiziya kanalları indidən buna hazır olmalıdırlar. İndiyədək kanallarda formalaşan informasiya məhsulları ekspertizadan keçirilməli və ya yaşa görə işarələnməlidir.

*"Təbii ki, bu məqsədlə provayderlər filtrasiya (süzgəc) sistemi qurmalıdırlar"*

**Eyni zamanda, adıçəkilən qanuna görə, internet media qurumları da informasiya məhsulunun uşaqlar arasında yayılmasını məhdudlaşdıran xəbərdarlıq mətnlərini yerləşdirməyə hazır olmalıdırlar" - deyə bildirən ekspert bunun böyük fayda verəcəyini də qeyd etdi. Onun sözlərinə görə, "halal internet" xidməti cəmiyyət üçün öz müsbət təsirini göstərəcək.**

***İradə SARIYEVA***

**Bakının böyük qəsəbələrindən biri də Qaraçuxurdur. Suraxanı rayonuna aid olan bu qəsəbədə rəsmi məlumata görə 80 min nəfər, qeyri-rəsmi məlumata görə, 100 min nəfərədək əhali yaşayır. Qəsəbə sakinlərini narahat edən başlıca problem ictimai nəqliyyatla bağlıdır. Problem ondadır ki, sözügedən qəsəbədən metroya yalnız bir marşrut - 81 saylı avtobus hərəkət edir. Bu da çox ciddi sərnişin sıxlığına səbəb olur.**

# Qaraçuxur sakinlərinin dəhşətli nəqliyyat problemi - qəsəbədən metroya cəmi bir marşrut...



Bu barədə qəzetimizə şikayət edən Qaraçuxur qəsəbə sakini Burhan Məmmədovun sözlərinə görə, metro istiqamətində yalnız 81 saylı marşrut işləyir ki, bu da sakinlərin tələbatını ödəmir: "81 saylı avtobusda hər gün sərnişin sıxlığı müşahidə edilir. Bunun nəticəsində Qaraçuxur sakinləri səhərlər işə, təhsil müəssisələrinə vaxtında gedə bilmirlər. Eyni zamanda, axşam evə qayıdanda yollarda qalmalı oluruq. Problem ondadır ki, 81 saylı marşrut xəttində hərəkət edən avtobuslar kiçikqabaritlidir. Salonu balaca olduğundan, sərnişin tutumu çox azdır. Ona görə də mövcud tələbata uyğun gəlmir. Ehtiyac var ki, salonu geniş olan avtobuslar xəttə buraxılsın. Yaxud da əlavə bir marşrut xətti açılsın ki, problem aradan qaldırılsın. Yoxsa, bu problemi həll etmək mümkün deyil. Hər gün yaşanan bu problem Qaraçuxur sakinlərinin narazılığına səbəb olur. Əvvəl 125, 33 saylı avtobuslar qəsəbədən birbaşa şəhərə gedirdi. Bir neçə il əvvəl bu marşrutlar ləğv edildi. Nəticədə ümid yalnız bir marşruta qaldı. İndi camaat əziyyət çəkir. Əvvəlki dayanacaqlarda avtobus sərnişinlə dolduğu üçün, qəsəbənin digər dayanacaqlarında avtobusa minmək mümkün olmur. O dərəcədə ciddi sərnişin sıxlığı müşahidə edilir".

***Burhan Məmmədov:*** *"81 saylı avtobusda hər gün sərnişin sıxlığı müşahidə edilir"*

***Mais Ağayev:*** *"Qaraçuxur istiqamətində də marşrut probleminin həllinə baxılır"*

B.Məmmədovun şikayətindən o da məlum oldu ki, yeni dərs ilinə qədər bu problemin həll ediləcəyi deyilirdi: "Ancaq bu baş vermədi. Bununla belə, biz gözləyirdik ki, şəhərə gətirilən yeni avtobuslar bizim qəsəbəyə işləyən marşrut xətlərinə də veriləcək. Ancaq belə olmadı. Hesab edirəm ki, Bakı Nəqliyyat Agentliyi yerində vəziyyətə baxmalıdır. Yaranan vəziyyətdən çıxış yolu üçün konkret tədbirlər görməlidir".

Məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayevlə əlaqə saxladıq. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Qaraçuxur qəsəbə sakinlərinin üzləşdiyi problem həllini tapacaq: "Artıq neçə vaxtdır avtobus xətlərinin optimallaşdırılması işləri gedir. Bu işlər çərçivəsində ətraf kənd və qəsəbələrdə ictimai nəqliyyatla bağlı mövcud olan çatışmazlıqlar, problemlər öyrənilir. Hazırda bütün bunlar təhlil edilir. Qaraçuxur istiqamətində də marşrut probleminin həllinə baxılır. Yəqin ki, həmin istiqamətdə sərnişinləri razı salacaq və qane edəcək tədbirlər görüləcək. Yaxın vaxtlarda bu istiqamətdə işlər görüləcək. Çünki hazırda təzə avtobuslar gətirilib, xərclər optimallaşdırılır. Bu işlər çərçivəsində Qaraçuxurla bağlı məsələ də öz həllini tapacaq".

***Vidadi ORDAHALLI***

№ 178 (4076) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

5-7 OKTYABR 2019-cu il

www.baki-xeber.com

# Yüzlərlə delfinin sirli intiharı...

**200-dən çox delfin özünü Kabo-Verdedəki Boa-Vişta adası sahillərinə atıb. Yerli sakinlər və turistlər delfinlərin üzərinə su tökərək geriyə - okeana dartaraq onları xilas etməyə cəhd göstəriblər.**

Lakin onların əksəriyyəti yenidən sahilə atılıb. "AZƏRTAC" bildirir ki, ümumilikdə 136 delfin məhv olub. Adanın hakimiyyət orqanları İspaniyadan ekspertlərin gəlişini gözləyirlər. Onlar delfinlərin bu davranışını müəyyənləşdirməyə cəhd edəcəklər. Alimlərin delfin və balinalar arasında intihar hallarına dair fikirləri müxtəlif cürdür. Bəzi ehtimallara görə, özlərini sahilə atanlar xəstə heyvanlardır, onların nəslindən olanlar isə həmin



heyvanlara kömək məqsədilə dallarınca atılırlar. Digər fərziyyəyə görə, bu, delfinlərin mühit üzərində akustik nəzarəti itirmələri ilə bağlıdır. Bioloqlar, həmçinin delfinlərin digər delfin dəstəsinin hücumundan yaxa qurtarmaları üçün bu addımı atdıqlarını da təxmin edirlər.

## Marsda qəribə siqnallar aşkarlandı

Aeronavtika və Kosmik Fəzanın Tədqiqatı üzrə Milli İdarənin (NASA) alimləri Marsda bəzilərinin seysmik mənşəli olduğu, bəzilərinin isə naməlum qaldığı qəribə siqnallar aşkarlayıblar. "Milli.Az" xəbər verir ki, həmin siqnallar "InSight" Mars aparatı vasitəsilə əldə edilib. "Ötən ilin noyabr ayında Qırmızı planetə çatan NASA-nın "InSight" Mars aparatı aprel ayında ilk seysmik siqnalı qeydə alıb", - məlumatda belə deyilir. Oktyabrın 1-də dərc olunan audio yazıların nümunələri 100-dən çox siqnalı əhatə edir. Onlardan yalnız 21-i Mars titrəmələri (zəlzələ) kimi tanınıb. Seysmoqrafın Mars torpağının təxminən beş metr dərinliyinə baş vurması nəzərdə tutulsa da o, yalnız otuz santimetri mənimsəyə bilib. Qurğunun Marsda yazdığı səslər sonradan Yerdəki tədqiqatçılara ötürülür.



## Bakıda zibil kimi atılan meymun almasının möcüzəvi sirri

**Meymun alması adlanan yaşıl, yumru meyvələr Bakıda və rayonlarda parklarda rast gəlinir. Bu ağac Azərbaycana Avropadan gətirilib. Ağacın özü oksigen hasil etməsinə görə ən faydalı ağacdır.**

Amma meyvəsi yeyilmir. Elə yeyilmədiyi üçün də payızda yetişib düşür, torpaqda çürüyür. Lakin çox az insan var ki, hər il payızda meymun almasının yetişməsini gözləyir. Çünki, məhz bu meyvə onun ağrılarının dərmanıdır.



"Medicina.az" möcüzəvi meyvənin orqanizmə hansı xəstəliklərdə faydalı olduğunu təqdim edir. Meymun almasının spirtdə cövhəri revmatizm, sümük, əzələ, oynaq, radikulit, diz, bel ağrılarında xaricə istifadə olunur. Eləcə də, dəri xəstəlikləri- dermatit, eczema, xorada yenə də dəriyə xaricən tətbiq olunur. Çəkisi 300-400 qr olan, daha çox meymunun beyninə bənzədiyinə görə, uşaqlar onunla futbol belə oynayır. Hazırlanma qaydası: Cövhərin hazırlanması üçün sizə 2-3 ədəd meymun alması kifayətdir. Meyvəni kub kimi doğrayıb, ətçəkəndən keçirirsiz. Bankaya yığıb, üzərinə çıxana qədər aptek spirti əlavə edirsiniz. Qapağını bağlayıb, qaranlıq, sərin yerdə 10 gün saxlanılır. Bu müddətdə ağzını açıb baxmaq olmaz. 10 gün sonra süzüb şüşə butulkaya tökürsünüz. Həftədə 2-3 dəfə ağrıyan yerə çəkirsiz və üzərindən isti bağlayırsız. Çalışın dərini yandırmayasız. Dəri xəstəliklərində isə sadəcə lazımi nahiyəyə çəkilir, yuyulmur. Kərə yağlı mazın hazırlanması: Meymun alması əzilir, kərə yağı ilə lay -lay bir şüşə qaba yığılır. 15 gün isti yerdə saxlanılır. Sonra qarışdırılıb və ya blenderdən keçirilib maz halına gətirilir. Əzələ və oynaq ağrıları, artroz, artrit, revmatizmdə çəkilir.

## Elan

Nazemtsev Serqey Rostislavoviçə məxsus, Sabunçu rayonu, Ləhiş bağlar massivində yerləşən bağ sahəsinin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

---

Məmmədova Elena Salmanovnaya məxsus, Sabunçu rayonu, Ləhiş bağlar ərazisində yerləşən bağ № 552/4446 ünvanına verilmiş müqavilə № 11196 itdiyi üçün etibarsız sayılır.

---

Allahverdiyeva Mahirə Abdulovnaya məxsus, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən №244 b bağ sahəsinə 22.04.1991-ci il tarixdə verilmiş №244 b/c itdiyi üçün etibarsız sayılır.

---

Qocayeva Fidan Natiq qızına Bakı Biznes Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Günün ilk yarısında hücum taktikası seçməyin. Mümkün qədər təmkinli, ehtiyatlı davranın. Məqsədə çatmaq üçün gərəyindən artıq vaxt və qüvvə sərf etməyin. Hədəfə doğru aparan yolda ikinci şans olmayacaq.



**Buğa** - Ən müxtəlif işlərin yerinə yetirilməsi üçün münasib zamandır. İndiyədək reallaşdırılmasını arzuladığınız məsələni gerçəkləşdirməyə başlayın. İradəli olun, əsla və heç bir halda geri çəkilməyin.



**Əkizlər** - Günün ilk yarısında yaranmış situasiyanı diqqətlə təhlil edin. Arzulara və xəyallara qapılmayın, illüziyalar aləmində dolaşmayın. Baş verənlərə realist münasibət bəsləyin.



**Xərçəng** - Çoxdankı rəqiblərlə münasibətlərin gərginləşməsi istisna deyil. Dostlar və ya qohumlardan birinin sizə qarşı ambisioz iddiaları var. Yaxın ətrafınızdakı insanların tələbləri ilə istəklərini nəzərə alın.



**Şir** - Ünsiyyət və fəaliyyət üçün daha geniş sahəyə ehtiyacınız var. Uğurlarınızla qürrələnməyin, təvazökar olun. İnformasiya ilə işləmək, müzakirələr, təcrübə mübadiləsi üçün yaxşı zamandır.



**Qız** - Günün ilk yarısında yaxın ətrafınızdakı insanlarla fəal ünsiyyətdə olun. Yeni simalar sizi stereotipləri dağıtmağa vadar edə bilər. Çoxdan bəri əlaqə saxlamadığınız insanlarla təmaslara yenidən nəzər salın.



**Tərəzi** - Günün ilk yarısında hadisələrin axarı qəfil məcraya yönələ bilər. Səbrli davranın, atacağınız addımları əvvəlcədən planlaşdırın. Ağır durumlarda neqativ hisslər sizi bədbinləşdirməsin.



**Əqrəb** - Yaranmış problemləri vaxtında həll etsəniz, olayların axarında ciddi dəyişikliklər olmayacaq. Səbrli davranın, kəmhövsələlik etməyin. Sürprizlər və yeniliklər olacaq. Öhdəliklərlə vədlərinizə laqeyd qalmayın.



**Oxatan** - Əvvəlcədən tərtib olunmuş fəaliyyət proqramı pozulacaq. Maliyyə imkanlarınızı stress-testə məruz qoymayın. Qənaətli olun, hər manatın hesabını bilin. Çox istədiyiniz, əldə etmək istədiyiniz nəsnənin alınmasını ertələyin.



**Oğlaq** - Hisslərinizi nəzarətdə saxlayın. Fikir mübadiləsini qarşıdurmaya və davaya çevirməyin. Məqsədə çatmaq üçün operativ hərəkət edin. Problemli situasiyada sərt tədbirlərə əl atmayın.



**Dolça** - Günün ilk yarısında bütün işləri əvvəlcədən planlaşdırmağa çalışmayın. İntuitiv hərəkət etsəniz, ciddi reqlamentdən çıxaraq daha böyük və əhəmiyyətli uğurlara nail ola bilərsiniz. Axşam saatlarında diqqətli olun.



**Balıqlar** - Günün ilk yarısında yaşanan hadisələri diqqətlə izləyin. Qarşı tərəfin dediklərinin fərqinə varın. Bir qədər qeyri-fəal davranın. Yalnız fövqəladə hallarda, o da ki qısa müddətdə hiperaktiv ola bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Yolu izah edən "ağıllı" ayaqqabı...

**Rusiyanın Milli Tədqiqat Nüvə Universitetinin subbakalavrları və universitetin 1523 saylı liseyinin şagirdləri yolu izah edən ayaqqabı hazırlayıblar.**



"Trend" bildirir ki, "Ağıllı" ayaqqabı addımları və itirilmiş kaloriləri hesablamaq imkanına malikdir. Mütəxəssislərin fikrincə, "bluetooth" texnologiyası ilə təchiz edilmiş ayaqqabılar sahibinin smartfonu ilə birləşir. Bu isə, onlara insanın nəzərdə tutulmuş marşrut üzrə hərəkətini izləməyə imkan verir. İnsan sağa və ya sola dönmədirsə, ayaqqabıların sağ və ya sol tayı titrəməyə başlayır. İstehsalçılar güman edirlər ki, onların tətbiqi yollarda qəza ehtimalını azaldacaq. Çünki, insana hərəkət zamanı smartfonun ekranına baxmaq lazım olmayacaq.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

***e-mail: azer22@mail.ru***

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.